“Qisas”avantürist ermənilər “ağıllandıracaq”

6

Səs

№ 139 (6580) **6 avqust**
2022-ci il. **Qiyməti 60 qəpik**

“Gərginliyə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür”

2

Avqustun 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. "İki sahil" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Soçidə vacib görüş: son qərar nə oldu?

8

Prezident Rəcəb Tayyib Ərdoğan Soçiyə bir günlük işgüzar səfəri çərçivəsində Rusiya prezidenti Putinlə görüşüb. Prezident Ərdoğan inandığını bildirib ki, Suriyadakı hadisələrə xüsusi diqqət yetirməyimiz bölgəyə də rahatlıq gətirəcək. Rusiya prezidenti Vladimir Putin isə qeyd edib ki, Avropa Rusiyadan fasiləsiz təbii qaz axınına görə Türkiyəyə minnətdar olmalıdır.

Rus ekspertlər: “Rusiya Ermənistana kömək etməyəcək”

15

Zərif vücudlu şəhid xanımlarımız

7

COVİD-19 pandemiyası: maddi və mənəvi zərbə

3

Xərçəngin yaranma risklərini necə azalda bilərik?



Keçən il dünyada 19,3 milyon insan xərçəng xəstəliyinə tutulub, onların yarıdan çoxu dünyasını dəyişib. Ümumdünya Səhiyyə Təşkilatı vurğulayır ki, aşağı və orta gəlirli ölkələrdə diaqnostika və müalicənin keyfiyyətsiz olması səbəbindən bu xəstəlikdən ölüm halları xeyli yüksəkdir.



Uşaqların bağçaya getməsi nədən önəmlidir?

"Uşaqlar yalnız ailə içərisində böyüdükdə təbii ki, bu onların inkişafına mənfi təsir göstərəcək. Uşaq cəmiyyət içərisində olarsa, öz yaşıdları ilə ünsiyyət qurarsa bu zaman daha çox inkişaf etmiş olar.

16

Azərbaycançılıq ideologiyası bizim üçün ən mühüm ideologiyadır

11

Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını vahid bir ideya ətrafında birləşdirir.

Bu futbolçu bir ilə 22 milyon avro qazanır!

“Bild" nəşri "Bavariya"nın ən çox maaş alan futbolçularının siyahısını hazırlayıb. Qol.az xəbər verir ki, ilk pillədə klubun yeni transferi Sadio Manedir. 30 yaşlı seneqallı hücumçunun maaşı illik 22 milyon avrodur.

16

"Gərginliyə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür"

Fransa Prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə zəng edib



Avqustun 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. "İki sahil" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Bildirilib ki, telefon danışığı əsnasında Emmanuel Makron son günlərdə regionda yaranmış gərginlikdən narahatlığını ifadə edərək Ermənistan və Azərbaycan arasında danışıqların davam etdirilməsinin və 2020-ci 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının həyata keçirilməsinin vacibliyini qeyd edib. O, Fransanın iki ölkə arasında dialoqun davam etdirilməsinə dəstək verməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev Ermənistan tərəfindən növbəti hərbi təxribatın törədildiyini və Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində baş vermiş bu təxribat nəticəsində hərbi qulluqçumuzun həlak olduğunu vurğulayıb. Dövlətimizin başçısı Azərbaycan Silahlı Qüvvələrinin bu təxribatın qarşısını aldığını, lazımi cavab tədbirləri gördüyünü deyib və baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirən Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ünsürlərinin ərazimizdən çıxarılması təmin edilməlidir. Lakin Ermənistan tərəfindən bu hələ də təmin edilməyib. Bu isə öz növbəsində rəsmi İrəvan tərəfindən 2020-ci il 10 noyabr Bəyanatının müddəalarının pozulması və Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirməməsidir.

Dövlətimizin başçısı vurğulayıb ki, üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Rusiya Müdafiə Nazirliyi ilə əldə olunmuş razılaşma nəticəsində Laçın dəhlizinə alternativ yeni yolun marşrutu müəyyən edilib və Azərbaycan tərəfindən bu yolun inşası başa çatdırılmaq üzrədir. Bu işlər yekunlaşan kimi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən Rusiya sülhməramlı qüvvələrinin həmin yola dislokasiya olunması nəzərdə tutulur. Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Rəsmi xronika

Prezident İlham Əliyev "Magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə komissiya yaradılması haqqında" Azərbaycan Prezidentinin Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Azərbaycan Respublikasında neft-qaz emalı və neft-kimya sənayesinin strateji inkişafı barədə təkliflərin hazırlanması üçün Komissiyanın tərkibində dəyişiklik edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

"Avstriya daima Azərbaycan-Avropa İttifaqı əməkdaşlığını dəstəkləyib"

Prezident İlham Əliyev Avstriya səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Şuller-Qötzburqun etimadnaməsini qəbul edib. Səfir Tomas Şuller-Qötzburq etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirərək özünün Avstriyaya səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırladıb. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığa toxunaraq Avstriya şirkətlərinin Azərbaycanda uzun illər uğurla fəaliyyət göstərdiyini qeyd edib. Dövlət başçısı bir çox Avropa şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərinə böyük maraq göstərdiklərini deyərək Avstriya şirkətlərinin də həmin ərazilərdə tikinti, infrastruktur və digər sahələrdə fəal iştirak edəcəklərinə ümidvar olduğunu bildirib. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığına toxunan Prezident İlham Əliyev Avstriyanın bu əməkdaşlığı daim dəstəklədiyini məmnunluqla qeyd edib. Dövlət başçısı Avropa İttifaqı ilə əlaqələrimizin genişləndirilməsində Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin səfərinin önəmini qeyd edib və səfər çərçivəsində imzalanan Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətinə toxunub. Dövlət başçısı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında eyni zamanda nəqliyyat, ticarət, yüksək texnologiyalar, turizm, kənd təsərrüfatı, tikinti sahələrini də qeyd edib.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Tomas Şuller-Qötzburq ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının bu il 30 illiyinin qeyd edildiyini vurğulayıb. İkitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsinin vacibliyinə toxunan səfir bunun üçün səylərini əsirgəməyəcəyini deyib. Tomas Şuller-Qötzburq vurğulayıb ki, dövlət başçısı tərəfindən əməkdaşlığımızın qeyd olunan əsas istiqamətləri hər iki ölkə üçün çox vacibdir. Səfir eyni zamanda Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində də Avstriyanın ikitərəfli əlaqələri bundan sonra da dəstəkləyəcəyini bildirib. O, ölkəmizin tolerantlıq nümunəsi olduğunu vurğulayaraq Azərbaycanın bu sahədə beynəlxalq tədbirlərə verdiyi töhfəni xüsusi olaraq qeyd edib.

"Azərbaycanla Slovakiya arasında əlaqələr uğurlu inkişaf edir"

Prezident İlham Əliyev Slovakiyanın yeni səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Layçakın etimadnaməsini qəbul edib. Səfir Milan Layçak etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib. Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında əlaqələrin uğurlu inkişafını qeyd edərək qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfəni vurğulayıb.

Dövlətimizin başçısı əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi, əvvəllər müzakirə edilən məsələlərin həyata keçiriləcəyinə ümidvar olduğunu deyib. İqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın və qarşılıqlı ticarətin dərinləşdirilməsi, həmçinin Azərbaycan və Slovakiya şirkətlərinin ölkələrimizdə fəaliyyətinin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirib. Dövlətimizin başçısı, eyni zamanda, Slovakiya şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində iştirakda marağını da qeyd edib.

Prezident İlham Əliyev Slovakiyanın Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığına verdiyi dəstəyi də vurğulayıb.

Səfir Milan Layçak ölkələrimiz arasında siyasi əlaqələrin kifayət qədər fəal olduğunu qeyd edərək iqtisadi münasibətlərin genişləndiyini deyib və əlaqələrimizin daha da möhkəmlənməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

COVİD-19 pandemiyası: maddi və mənəvi zərbə

Bu gün ölkəmizdə COVİD-19 pandemiyasına yoluxanların sayında ciddi bir şəkildə artım müşahidə olunursa, bu, o deməkdir ki, virusdan yoluxma halı sürətlə yüksəlir. Çağrılmamış qonaqdan xilas olacağımıza sevinirdiksə, bu günün statistik rəqəmləri koronavirus pandemiyası ilə bizi hələ də birgə yaşamağa sövq edir.

Qısa müddətdə dünyamızı bürüyən, milyonlarla insanın ağır virusa yoluxmasına, insanın acı ölümünə səbəb olan COVİD-19 pandemiyasından ölkəmizdə ölənlərin sayının 9 min 748 nəfər olması bir ölkə üçün kifayət qədər insan itkisi deməkdir. Əgər Vətən müharibəsini yaşamış bir xalq olaraq 44 günlük savaşda 3 minə qədər şəhid verdiksə, demək pandemiya ilə mübarizədə üç o qədər itkiyə məruz qalmışıq. Demək, bu virus müharibədən də təhlükəlidir. Hələ də insanların qatili olaraq davam edir. Nəinki Azərbaycan eləcə də bütün dövlətləri bu virusla mübarizəni davam etdirə-etdirə öz vətəndaşlarını itirirlər. Bu bəladan dünyanın bütün dövlətləri həm maddi, həm

də mənəvi böyük xəsarətlər almaqda davam edirlər. Dünyanın iqtisadi, siyasi və hərbi gücünə görə seçilən dövlətləri belə bu virusun qarşısında gücsüzdürlər.

AZƏRBAYCANDA VURULAN VAKSİN DOZALARININ ÜMUMİ SAYI 13 MİLYON 818 MİNİ ÖTÜB

Əlbəttə ki, bir çağırış olaraq virusun qarşısının alınmasında vaksinasiya olunmağın rolu danılmazdır. Öz həyatını, yaxınlarını təhlükədən xilas etmək üçün hər bir vətəndaş vaksinasiya olunmalıdır. Vaksinasiya başlanılan ilk günlərdə tərəddüd edənlər sonralar artıq bunun nə qədər vacib olduğunu anlamış oldular. Bir daha əvvəlki günlərimizə qayıtmaq üçün məsuliyyətli olmalı, düşmənə qalib gəlməli "Biz birlikdə güclüyük" deməliyik. Bildiyimiz kimi, vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir. Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 818 min 11, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 366 min 777, ikinci mərhələ üzrə 4 milyon 857 min 890, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 338 min 788, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 254 min 556-dır.

DÜNYADA KORONAVİRUSA YOLUXMA HALLARININ SAYI VƏ ÖLÜM HALLARI GÖSTƏRİCİLƏRİ ARTIR

Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirməsi də təbii ki, ölkəmizdə reallaşan tədbirlərin təzahürüdür. Əlbəttə ki, bu gün də ölkəmizdə vəziyyət daim nəzarətdədir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Qebreyesusun bildirdiyinə gərə, "Omikron"un BA.4 və BA.5 yüksək dərəcədə yoluxucu alt tiplərinin yayılması ilə əlaqədar olaraq bütün dünyada koronavirusa yoluxma hallarının sayı, həmçinin xəstəxanaya yerləşdirilmə və ölüm halları göstəriciləri artır. Onun sözlərinə görə, bütün dünyada SARS-CoV-2 viruslarının genetik analizi və testlərin sayı kəskin şəkildə azaldığından virusu izləmək əvvəlkindən daha çətin olub. Doktor Tedros xatırladıb ki, vaksinlər milyonlarla insanın həyatını xilas etməyə kömək edib. Bu gün hökumətlər bütün risk altında olan insanların əlavə gücləndirici dozalar ala bilməsini təmin etməyə diqqət etməlidirlər. O, həmçinin qızılca və pnevmoniya da daxil olmaqla, əhalinin digər ölümcül xəstəliklərə qarşı peyvənd edilməsinin vacibliyini də qeyd edib.

ÇİÇƏK XƏSTƏLİYİNƏ QARŞI PEYVƏND EDİLMƏYƏN İNSANLAR MEYMUNÇİÇƏYİ XƏSTƏLİYİNƏ HƏSSASDIRLAR

Bu virus insanlarda və heyvanlarda meymunçiçəyi xəstəliyinə səbəb olan ikiqat zəncirli DNT virusudur. İlk dəfə meymunda aşkar edilib və 1970-ci ildən bəri 10 Afrika ölkəsində qeydə alınıb. Afrikadan kənarda xəstəliyin ilk yayılması halı 2003-cü ildə ABŞ-da olub. Avropada ilk təsdiqlənmiş yoluxma halı 2022-ci ilin may ayında qeydə alınıb. Mütəxəssislərin qənaətinə əsasən, təbii çiçək xəstəliyinə qarşı peyvənd edilmiş insanların meymunçiçəyi virusuna yoluxma ehtimalı müəyyən qədər azdır. Lakin dünya üzrə təbii çiçək xəstəliyinə qarşı peyvəndlənmənin 40 ildən artıqdır ki, dayandırılması bu yaşdan cavan olan insanların meymunçiçəyi xəstəliyinə həssas olmalarını əsaslandırır. Azərbaycanda hələ ki, meymunçiçəyi xəstəliyinə yoluxma halı müşahidə olunmayıb. Buna baxmayaraq, hər bir insan məsuliyyətli olmalı, gigiyena qaydalarına əməl olunmalı, sosial məsafə gözlənilməlidir.

Ölkələr təsirə məruz qalan insanların milliyyətindən, dərisinin rəngindən və ya dinindən asılı olmayaraq meymunçiçəyi xəstəliyinin sürətlə yayılmasının qarşısını almaq üçün əməkdaşlığı genişləndirməlidir. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı xəbərdarlıq edib. ÜST onu da qeyd edib ki, bir neçə il Afrikada meymunçiçəyi problemi üzərində işləyib, lakin bu heç kimi maraqlandırmayıb. İyulun 23-də Ümumdünya Səhiyyə Təşkilatı virusun yayılmasını, beynəlxalq əhəmiyyət kəsb edən, ictimai səhiyyə sahəsində fövqəladə vəziyyət elan edib. Qeyd edək ki, bu, səhiyyə sistemində ən yüksək təhlükə səviyyəsidir.

DÜNYA DÖVLƏTLƏRİ YENİDƏN SINAĞA ÇƏKİLİR

Mayın əvvəlində Böyük Britaniyada xəstəliklə əlaqədar bir neçə hal barədə yayılan xəbərlər xəstəliyin Avropaya ayaq açdığı barədə bir siqnal idi. ÜST-ün məlumatında o da qeyd olunur ki, meymunçiçəyi xəstəliyi sahəsində tədqiqat proqramını sürətləndirmək çox vacibdir və biz artıq bunu edirik ki, ən çox zərər çəkmiş Afrika ölkələri bu xəstəliyin profilaktikası və onunla mübarizə aparmaq üçün resurslara malik olsunlar.

Xatırladaq ki, 2019-cu ilin dekabrında Çində başlayan Covid-19 pandemiyası tezliklə bütün dünyaya yayıldı və dünya dövlətlərini sınağa çəkdi. Pandemiya başlayana qədər dünyanada etalon sayılan, qabaqcıl səhiyyə sisteminə malik Almaniya, İtaliya, Fransa kimi ölkələr pandemiya qarşısında çətin durumda qaldı, tibbi ləvazimat, xəstəxanalarda yer çatışmazlığı, xəstələr arasında çoxsaylı ölüm halları humanitar fəlakət həddinə çatdı.

Bu gün hər bir Azərbaycan vətəndaşı virusun qarşısını almaq üçün əllərin tez-tez və düzgün yumalı, sosial məsafəni saxlamalı, otaqların tez-tez havalandırılmasına və s. ciddi əməl etməlidir. Hər bir Azərbaycan vətəndaşı, real vəziyyəti düzgün qiymətləndirməlidir. Həyati təhlükə olan virusa yoluxmamaq üçün verilən tövsiyələrə düzgün riayət olunmalıdır.

Nəzakət ƏLƏDDİNQIZI

Badam bağlarından "Azbadam"a, oradan ixraca

Azərbaycanın zəngin təbiəti, müxtəlif iqlim qurşaqlarına malik olması ölkəmizdə bütün növ meyvə-tərəvəzin yetişdirilməsinə, yüksək məhsuldarlığa imkan verir. Ulu Yaradan sanki bu torpaqlara öz qələmi ilə xüsusi çalar qatmış, hər bölgəmizi meyvə-tərəvəzin bir növünə "vətən" etmişdir.

Meyvə-tərəvəzlərdən söz düşəndə həmin an almanın, şaftalının, narın, əriyin, zeytunun, kartofun, pomidorun, eləcə də qoz, fındıq və badamın hansı bölgənin təbiətinə, havasına, suyuna vurğunluğu da söhbətin mövzusu olur. Lakin öz "vətənləri" ilə yanaşı, bütün meyvə və tərəvəz növlərinin əkini ilə ölkəmizin bütün rayonlarında məşğul olunur. Bu gün bazarlarımızdakı bolluq zəhmət adamlarının torpağa tər verib, əvəzində zər almasının nəticəsidir.

Haqqında danışacağımız badamın "vətəni" Azərbaycanın qədim bölgəsi Naxçıvandır. Dövlətimizin başçısı cənab İlham Əliyev çıxışlarının birində ölkə ərazisindəki badam bağlarının əksəriyyətinin Naxçıvan Muxtar Respublikasında olduğunu vurğulamış, badamçılığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmişdir.

Naxçıvanda badamla eyniadlı Badamlı kəndi var. Bu kənddə müxtəlif növə malik yüzlərlə badam ağacları yetişdirilib, hər il tonlarla məhsul istehsal edilir. Ölkəmizin digər bölgələrində də badamçılıqla məşğul olan zəhmət adamları var.

İqtisadiyyatın şaxələndirilməsi vacibdir

Müasir dövrdə bütün növ meyvə və tərəvəz əkinlərinin çoxaldılması iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. Bu sahənin inkişafı xüsusilə qeyri-neft sektoru ilə bağlı qarşıya qoyulan prioritetlərin uğurla həllini tapmasına şərait yaradır. Qeyri-neft sektorunda payı olan kənd təsərrüfatı məhsullarının istehsalının artırılması isə ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın aradan qaldırılması deməkdir.

Avqustun 3-də dövlətimizin başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın "Azbadam" Məhdud Məsuliyyətli Cəmiyyətinin badam emalı zavodunun açılışında iştirak etmələri qeyri-neft sektorunun ölkəmizdə diqqət mərkəzində saxlanıldığının göstəricisidir.

Ölkə başçısı açılış zamanı demişdir: Son vaxtlar fındıqçılıq Azərbaycanda çox inkişaf edir. Fındıq bağlarının sahəsini iki dəfədən çox artırmışıq. Fındıq ixracına görə biz indi dünyada üçüncü yerdəyik. Amma badam istehsalı, əfsuslar olsun ki, Azərbaycanda çox aşağı idi və daxili tələbatı ödəmirdi. Ona görə indi badamçılıqla da ciddi məşğul olmaq lazımdır.

Barlı-bərəkətli badam bağları

Badam istehsal etmək, onun ixracını təmin etmək böyük zəhmət tələb edir. Bu, illərlə vaxt istəyir. Əgər badam bağları varsa, onlara xüsusi qaydalar əsasında xidmət göstərilirsə, növ müxtəlifliyi təmin olunursa, məhsuldarlıq yüksəlirsə, deməli, badam istehsalı və ixracı üçün əlverişli yol açılır. Elə badam emalı zavodunun açılışı zamanı dövlətimizin başçısına da badam bağları ilə əlaqədar məlumat verilmişdir ki, layihənin həyata keçirilməsi iki mərhələdə planlaşdırılıb. Birinci mərhələ üzrə 2017-2019-cu illərdə Abşeron rayonunun Qala və Bilgəh qəsəbələrində Aralıq dənizi badam sortlarından olan Quara (160 hektar), Belona (95 hektar), Avijor (138 hektar) və Soleta (34 hektar) növlü ağaclardan ibarət badam bağları salınıb. Bağlara yatırılan ümumi investisiya məbləği 17 milyon manatdır.

İkinci mərhələdə yaradılan zavod ölkədə ilk badam emalı müəssisəsidir. İnşası 2021-ci ilin sentyabrında tamamlanan zavodun ümumi investisiya dəyəri 13,5 milyon manatdır. Bunun 10 milyon manatı Sahibkarlığın İnkişafı Fondu hesabına ayrılan güzəştli kredit, 3,5 milyon manatı isə təsisçi kapitalıdır.

Qeyd olunub ki, 2015-2019-cu illərdə ölkədə istehlak olunan təmizlənmiş badamın 90-95 faizi idxal edilirdisə, 2021-ci ilin nəticələrinə görə artıq ürəkaçan dinamikanı görmək olacaq.

Vurğulanıb ki, badam idxalı 50 faizə qədər azaldılıb. 2024-cü ildə isə yalnız bu bağlar bütün Azərbaycanın istehlak həcmini qarşılaya biləcək. Digər bağlardan alınan badamlar da emal edib ixrac ediləcək.

Badam ağacları arasında həm xarici, həm də yerli sortlar var. Məqsəd yerli sortların içərisində məhsuldar və təbiətə uyğun çeşidləri seçib seleksiya yolu ilə onların artırılmasına nail olmaqdır.

Prezident İlham Əliyev demişdir: Burada çox vacib məsələ odur ki, əlbəttə, intensiv bağçılıq daha çox məhsulun həcminə istiqamətləndirilir. Amma bizim xüsusiyyətimiz və üstünlüyümüz odur ki, - hər zaman belə olub, bu gün də belədir, - bizdə yetişdirilən meyvə-tərəvəz təbiidir. Yəni, orqanikdir və onun xüsusi dadı var. Burada yerli sortlara daha çox üstünlük verilməlidir. Yəni, kəmiyyət dalınca getsək, bizim xüsusi dad verən o meyvələri itirə bilərik. Buna xüsusilə diqqət yetirin. Çünki bizim istər narımız olsun, almamız olsun, pomidorumuz olsun, xurmamız olsun, doğrudan da xüsusi dada malikdir. Biz onu itirməməliyik.

Ardı Səh. 5

Badam bağlarından "Azbadam"a, oradan ixraca

Əvvəli-Səh-4

Azərbaycan badam ixrac edəcək

Badam emalı zavodunun açılışı zamanı dövlətimizin başçısına məlumat verilib ki, badam ləpəsinin ölkədaxili illik istehlak həcmi 750-800 ton təşkil edir. 2015-2019-cu illərdə ölkədə istehlak edilən badam ləpəsinin 90-95 faizi idxal olunurdu. Bu məqsədlə ölkədən hər il 6 milyon ABŞ dolları məbləğində valyuta xaricə çıxırdı. Müəssisənin fəaliyyəti nəticəsində 2024-cü ildən etibarən daxili bazarın tələbatı "Azbadam" MMC-nin emal müəssisəsi hesabına nəinki tam şəkildə təmin olunacaq, məhsullar Avropa İttifaqı ölkələrinə, Türkiyəyə, MDB və Mərkəzi Asiya respublikalarına, Hindistana, Birləşmiş Ərəb Əmirliklərinə və digər ölkələrə "Made in Azerbaijan" brendi ilə ixrac ediləcək.

Zavodda məhsulun ilkin emalı, sındırılması, qurudulması və çeşidlənməsi nəzərdə tutulur. Müəssisə İspaniyanın "Jose Borrell S.A." brendinə məxsus avadanlıqla təchiz edilib. Zavodun illik emal gücü 2 min ton badam ləpəsidir.

Prezident İlham Əliyev badam bağlarının artırılması ilə bağlı tapşırıq vermişdir: Öz bağlarınızın da sahəsini genişləndirin. Çünki badam yetişdirmək üçün Abşeron torpağı çox münbitdir. Burada boş sahələr çoxdur. Biz gələndə gördük ki, bütün yol boyunca sağ-sol zeytun bağlarıdır. Əvvəllər bu ərazi boş sahə idi, son vaxtlar əkilmişdir. Bu, böyük imkanlardır. Abşeron torpaqları zeytun, badam yetişdirmək üçün ən münbit torpaqlardır. Burada hələ boş torpaqlar var, onlardan mütləq istifadə etmək lazımdır. Çünki biz gələcəkdə badamı da fındıq kimi ixrac edəcəyik.

Badam - dünyanın ən faydalı qidası

Badam zəngin tərkibə malik, ləpələri doymamış yağ turşuları və bitki mənşəli zülalların təbii mənbəyidir. Tərkibindəki zülallar orqanizm üçün vacib, əvəzolunmayan amin turşuları ilə zəngindir. Badam ləpəsində sümüklərin inkişafı və möhkəmlənməsi üçün faydalı olan bir sıra mineral, vitamin və fermentlər, xüsusilə kalsium, manqan, fosfor, maqneziumun miqdarı daha çoxdur. Şirin badam xalq təbabətində qanazlığı, yuxusuzluq, miqren və şəkərli diabet kimi xəstəliklər zamanı istifadə edilir. Badam qaraciyərin və dalağın işini yaxşılaşdırır, yüngül ödqovucu təsir göstərir, həzmi və iştahanı normallaşdırmaq, yumşaldıcı təsirə malikdir. Tərkibindəki minerallar sayəsində dərinin su-lipid balansını təmin edərək onu nəmləndirir, yumşaldır və hüceyrələri yeniləyir.

Badamı qiymətli edən onun tərkibində yüksək miqdarda olan yağlardır. Acı badamda 45, şirin badamda isə 62 faiz yağ olur.

Badamın faydaları haqqında məlumatlı olanlar yəqin ki, çoxdur. Son zamanlar isə badam dünyanın en faydalı qidası adlandırılır. Alimlər hesab edirlər ki, bir çox faydaları ilə bərabər, badam tərkib etibarilə ən qidalandırıcı, möcüzə yarada bilən məhsuldur. Bir ovuc badamda cəmi 163 kalori var, onun tərkibində zeytun yağında olduğu kimi, doymamış yağlar toplanıb. Hətta cəmi 3-4 ədəd badamda bir desert qaşığı zeytun yağında olduğu qədər kalori var. Badamın tərkibində Omeqa yağları kimi çoxlu sayda doymamış yağ, protein, lif var. Badam bu baxımdan ürəyin sağlamlığı üçün ən vacib olan, xolesterinlə mübarizə aparan qida, çoxsaylı faydalı maddələrin mənbəyidir.

Badamın tərkibində çox miqdarda antioksidantlar, potasium toplanıb. Onu qovrulmamış, çiy şəkildə yemək daha faydalıdır. Bu, stresi də azaldır. Mütəxəssislər deyirlər ki, bir ovuc badam yemək gündəlik maqnezium ehtiyacınızın 20 faizini ödəmək deməkdir. Maqnezium çatışmazlığı olanlar badam yeməklə bunu aradan qaldıra bilərlər.

Badam həmçinin dərini qorumaq, qan təzyiqini normada saxlamaq, qanda şəkərin miqdarını tənzimləmək, sümükləri gücləndirmək, damarda sərtliyin, xərçəng hüceyrələrinin yaranmasının qarşısını almaq kimi xüsusiyyətlərə də malikdir. Yüksək kalorili olsa da, uzun zaman tox saxlaya bilmək baxımından badam artıq çəkidən xilas olmağa da yardım edir.

İlk badam istehsalı zavodu bu sahədə uğurun başlanğıcı olacaq

1990-cı illərin əvvəllərində iflasa uğramış iqtisadiyyatımız müstəqilliyimizin bərpası illərindən sonra ötən dövr ərzində ilbəil gücləndirilmiş, inkişaf mərhələsinə qədəm qoymuşdur. Bunu ötən illərin iqtisadi yüksəlişlə bağlı statistikasında da görmək mümkündür. 90-cı illərdə Azərbaycanın SSRİ-nin tərkibindən çıxması ilə ölkədə süni şəkildə yaradılan sosial-iqtisadi tənəzzül insanların maddi rifah halının aşağı səviyyəyə enməsi ilə yanaşı, onların iş yerlərini itirmələri ilə də nəticələnmişdi. Bütün bunlar isə ümumi əhali rifahına böyük zərbə endirmişdi. Əmək haqlarının az olması, iş yerlərinin bağlanması, ərzaq qıtlığı həmin illərin bu gün xatırlanan ən acınacaqlı anlarıdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan iqtisadi inkişaf strategiyasının ötən illər ərzində ölkəmizdə uğurla həyata keçirilməsinin nəticələrini bu gün həyatımızın bütün sahələrində hiss edirik. Ölkədə torpaq islahatının aparılması, torpaqların öz sahiblərinə qaytarılması yeni iş yerlərinin açılması və əhalinin məşğulluğunun təmin olunmasında mühüm amil oldu. Kənd zəhmətkeşlərinə istehsal etdiyi məhsulu satmaları üçün şəraitin yaradılması, imtiyazların və uzunmüddətli kreditlərin verilməsi kəndli təsərrüfatlarının yaranmasına və sahibkarlığın inkişafına yeni üfüqlər açdı.

Ölkənin gələcəyə hesablanmış prioritetlər əsasında idarə olunması iqtisadi gücümüzü artırdı. Bunun nəticəsidir ki, açılışı olan ilk badam istehsalı zavodu kimi hazırda ölkəmizdə yüzlərlə istehsal müəssisəsi fəaliyyət göstərir. Azərbaycan artıq yüzlərlə adda məhsul ixracatçısıdır. Yaxın gələcəkdə o məhsulların sırasına badam da əlavə olunacaq. Ölkəmizdə badam bağları sahələrinin daha da genişləndirilməsinə və bu zavodun ardınca neçə-neçə badam istehsalı zavodunun açılacağına böyük ümidlər bəsləyirik. Çünki badam bağlarımız nə qədər çox olarsa, badam istehsalı zavodlarımız da bir o qədər çox olar. Bağlardan zavodlara daşınan məhsul isə badam ixracı üzrə ölkəmizi dünyada birinci edər.

Mətanət MƏMMƏDOVA

"Qisas" avantürist ermənilər "ağıllandıracaq"

2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatında qeyd olunmuşdu ki, Ermənistan ordusunun birləşmələri Azərbaycan ərazilərindən, o cümlədən Qarabağdan çıxarılmalıdırlar. Doğrudur, Ermənistanın müharibədə əzilib darmadağın olunmuş hərbi hissələrinin qalıqlarının böyük qismi çıxarılsa da, müəyyən qismi Qarabağda qaldı. Bundan sonra həyasızlıqda tayibərabəri olmayan məğlub ölkənin rəhbərliyi götürdüyü öhdəliyi yerinə yetirmək əvəzinə gizli çəkildə Xankəndiyə əsgər göndərməyi davam etdirdi. Ermənistan hərbi komandanlığı çağırışçı gəncləri mülki geyimdə Xankəndiyə gətirir, burada hərbi paltar geyindirib silahlandırırdılar. Təbii ki, onlar bura diversiyalar və terrorlar törətmək üçün gətirilirdilər. Xocavənddə, Kəlbəcərdə, Ağdərədə, Laçında baş verən terror hadisələri, atəşkəsi davamlı pozmaq onların əsas vəzifəsi idi. Lakin bunun da üstü açıldı və rəsmi Bakı İrəvana təzyiqini daha da artırdı.

Bir neçə gün əvvəl başlanan "Qisas" əməliyyatı nəticəsində qanunsuz erməni hərbi hissələrinə ağır zərbələr endirilib. Ölən və yaralananların olduğu bildirilir. Bir neçə artilleriya qurğusunun, hərbi texnikanın və döyüş sursatının məhv edilməsi barədə məlumatlar verilir. Bir sıra hakim yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçib. Getdikcə dalana sıxışdırılan Ermənistan nəhayət, götürdüyü öhdəliyə əməl etməkdən başqa çarə olmadığını başa düşüb. Bu qondarma dövlətin başçıları anlayıblar ki, Azərbaycanın gözləmə limiti qurtarıb və onların yeni bəhanələrini qəbul etməyəcək, sərt tədbirlər görəcək. Ona görə də Ermənistandan hərbi xidmətə çağırılan və Azərbaycanın hazırda sülhməramlıların müvəqqəti nəzarətində olan ərazilərində yerləşdirilmiş erməni hərbçilər artıq vaxtından əvvəl təcili tərxis olunurlar.

Bu barədə Ermənistan parlamentinin deputatı Tiqran Abramyan özünün "Facebook" səhifəsində məlumat verib. O, Ermənistandan Qarabağa hərbi çağırışın sonuncu dəfə 2020-ci ilin iyul-avqust aylarında keçirildiyini xatırladıb və bildirib ki, 44 günlük müharibədən sonra, 2021-ci ilin qışından Ermənistandan Qarabağa çağırışçılar göndərilmir. "İki il əvvəl Ermənistandan hərbi xidmətə çağırılan əsgərlərin Qarabağdakı son dəstələri buranı 2022-ci ilin avqustunda tərk etməli olmasına baxmayaraq, Azərbaycanın tələbi ilə tərxisetmə, deyəsən, vaxtından əvvəl həyata keçirilib", - deyə deputat yazıb. Hiss olunur ki, qəzəbindən boğulan deputat bunu həzm edə bilmir və sətiraltı olaraq büruzə verir.

Ancaq o da məlumdur ki, Ermənistan zabit kadrların bir hissəsinin hələ də Xankəndidə qalmasına çalışır. Həmin zabitlər guya yerli müdafiə hissələri ilə müqavilə bağlayaraq xidmətlərini orada davam etdirməyə qərar verirlər. Qısaca desək, ermənilər mümkün qədər torpaqlarımızda qalmağa, şübhəsiz ki, gələcəkdə hansısa fitnə-fəsadlar-terrorlar, diversiyalar törətməkdə israr göstərirlər. Ancaq belə məkrli niyyətlərin də qarşısını almaq çətin olmayacaq. Otuz il müharibəyə hazırlaşmış Ermənistan ordusu 44 gün ərzində darmadağın edilibsə, onun qırın-qırtıları heç əl-ayağa da dolaşmaq iqtidarında olmayacaqlar. Sadəcə olaraq, xəstə təxəyyüllü ermənilər özlərində saxta illüziya yaradırlar. Çünki Azərbaycanın hüquq-mühafizə orqanları Xankəndidə pasport rejimi yoxlaması aparanda həmin təxribatçı-terrorçular süpürülüb ölkəmizin sərhədlərindən bayıra atılacaqlar. Artıq Ağdərə və Laçın istiqamətində erməni quldurları gizləndikləri postlardan və yüksəkliklərdən qovulublar. Onlar Azərbaycan Ordusunun bir neçə əsgərinin ölümünə və yaralanmasına səbəb olmuşlar. Müqavimət göstərən erməni quldurlarından isə 19 nəfər yaralanmış, 4 nəfər öldürülmüşdür. Ancaq cinayət törədən ermənilərə bəraət olmayacaq, istər mülki şəxs olsun, istərsə də hərbçi olsun. Onlar Azərbaycan qanunlarına əsasən hərbi cinayətkar kimi cəzalandırılacaqlar. Heç bir cinayətdə iştirak etməyənlər və Azərbaycanın qanunlarına tabe olan vətəndaşlar isə rahat yaşamağa davam edə bilərlər. Hadisələrin inkişafı belə düşünməyə əsas verir ki, Xankəndidə pasport rejiminin yoxlanmasına az qalıb.

Azərbaycan torpaqlarında qan tökməyə gələnlər nəhayət, birdəfəlik rədd olub getməlidirlər. Qalanlar olsa, "Qisas"ın öldürücü zərbəsini öz üzərlərində hiss edəcəklər, ikinci yol yoxdur.

Vəli İlyasov

Zərif vücudlu şəhid xanımlarımız

Azərbaycan qadını tarix boyu gözəl örnək olub. Bunu öz yaddaşında qoruyub-saxlayan tarixi salnamələr deyir. Ağıllı, cəsur sələflərimiz ən çətin məqamlarda belə, ayıq-sayıqlığı, çevikliyi və düzgün qərar qəbul etmək bacarığı ilə hamını heyrətləndiriblər. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi və millətinə, torpağına olan hədsiz məhəbbət və gözəlliyi ilə tanınmışdır".

Tariximizin ayrı-ayrı dövrlərində yaşayıb fəaliyyət göstərmiş qadınlar müdrikliyi, işgüzarlığı ilə keçmişimizə parlaq səhifələr yazıblar. Ölkəmizin ictimai-siyasi və mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib. "Çoxəsrlik mədəni irsimizin təşəkküründə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir" - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Milli varlığımızın ifadəsi olaraq, əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub-yaşadılması, bilavasitə onun adıyla bağlıdır. Bütün sahələrdə əməyi olan Azərbaycan xanımı dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində müstəsna rola malikdir. Qətibə xanım, Sara xatun, Məhinbanu, Xeyransa bəyim, Tuti Bikə və başqaları Azərbaycan qadınının nümunəsidir.

Azərbaycan qadınları Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq, ölkəmizin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə başlamışlar. Sürətlə maariflənən qadınlarımız yüz illərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar.

"QADIN BƏŞƏRƏ YARAŞIQ, ZİNƏT, İNSANLIĞA ŞƏRƏF, ŞAN-ŞÖHRƏTDİR"

Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi, müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər.

Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik və insanpərvərlik nümunəsi olan qadınlar düşmənlə üz-üzə dayanaraq vətənin çətin zamanında əsgər paltarı geyinərək öz əsgər qardaşlarının yanında olmağı da bacarırlar. "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir", - deyirdi Heydər Əliyev.

Azərbaycan qadınının tariximizə adını yazdıran əməli, mübariz ruhu, bacarığıdır. Bir anlıq dünyamızı qadınsız təsəvvür etsək, rəngi qaçmış boz aləmlə qarşılaşarıq. Ötən əsrin 90-cı illərində ölkəmizdə baş verən olaylar nəticəsində nə qədər ismətli Azərbaycan qadınının böyüklüyünü gördük. Birinci və İkinci Qarabağ müharibəsində biz bunun bir daha şahidinə çevrildik. Düşmənə təslim olmamaq üçün qar adama çevrilən, qarlı dağlar aşaraq körpəsinin həyatına nöqtə qoyan, öz övladının səsi çıxmasın deyə, ağzını qapayan və ölümlə üz-üzə qoyan namuslu Azərbaycan qadınının vüqarı bizlər üçün nümunə və ucalıq simvoludur. Nə qədər yazsaq da, yenə də bu obrazı yaratmaq da çətinlik çəkirik. Qadın mübarizliyi ilə dastan yaradandır bizim Azərbaycan qadını.

3 MİN ŞƏHİD QARDAŞIN BİR ŞƏHİD BACISI

Bu gün şəhid qadınlarımızın maraqlı, keşməkeşli həyat yolundan danışacağıq. 3 min şəhid qardaşın bir şəhid bacısı Arəstə Kərim qızı Baxışova. Bir şairin nəzmə çəkdiyi misralar yada düşür.

Üç min çiçək içrə yeganə gülsən,
Arzularla dolu ölməz könülsən.
Düz üç min qardaşa tək bacısan sən,
Düz üç min qardaşa baş tacısan sən.
Düz üç min üzüyün tək qaşı sənsən,
Ürəklərdə sevginin nəqqaşı sənsən.
Uyu torpağında ahəstə, bacım,
Ey igid, qəhrəman Arəstə bacım!..

Hər kəsin ocağında boy atan bir xanım kimi sevildi. Sanki, dünyamıza sülh gətirilməsində bir göyərçin kimi doğulmuşdu. Qanad açıb uçduğu yerlərdə sülh sorağının gətirəcəyinə əmin idi. Vətənim dardadırsa, şəhid olmağa hazıram, - dedi. Dağ döşündə bitəcək bənövşələr, lalələr Arəstə kimi şəhidlərimizin torpağa tökülmüş qanı ilə boy atacaq və yetişən hər bir güldə, çiçəkdə onların ətirləri duyulacaq. Bu hər kəsə güc verəcək, bu vətən eşqi gücüdür ki, axacaqdır damarlardan. Bir ailənin övladı, bir millətin övladı oldu. Böyükdən kiçiyə hamı Arəstəni tanıyır. Axı necə də tanımasın 3 min qardaşa bir bacı olanı? Elimizin mərd qızını.

Qarabağda al lalələr bitəndə,
Zirvələri göy dumanda itəndə,
Ətəyində yaşıl yarpaq əsəndə,
Mənzərələr şən nəğmələr ötəndə,
Sorağın gələcək ellərdən sənin.

Azərbaycan Silahlı Qüvvələrinin çavuşu və hərbi feldşeri, Vətən müharibəsinin şəhidi Arəstə Baxışova. 1989-cu il mayın 4-də Xaçmaz şəhərində anadan olan Arəstə iki qardaşın bir bacısı olub. Atası baş leytenant Kərim Baxışov Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb və tale elə gətirib ki, Arəstənin dörd yaşı olanda o, dünyasını dəyişib. Həyatın ilk zərbəsini kiçik yaşlarında alır. Bəlkə, elə həyat onun mübariz, daha mətin böyüməsi üçün elə ilk günlərdə imtahana çəkir.

Arəstə Baxışova 1995-2004-cü illərdə Biləcəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə təhsil alır. 2004-2008-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Kollecində "İngilis dili" üzrə təhsil alıb. O, 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında çalışıb. 2019-cu il iyulun 12-dən isə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində operator vəzifəsində xidmət edirdi.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərib. Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Arəstə Baxışova ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.Arəstə Baxışova ölümündən sonra 2021-ci il mayın 12-də Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan "Florence Nightingale" medalı ilə təltif edildi.

Arəstə Baxışovanın Mərdan adında oğlu və Zəhra adında övladları var. Bu gün onlar bizə ondan qalan yadigarlardır. Bu gün onlar belə bir ananın övladları olduqları üçün qürurlanırlar. Oğlu Mərdan Məmmədli anamı çox sevirdim, deyir: "O, bizim qayğımıza qalırdı, ana sevgisi verirdi. Anamın şəhadəti xəbərini qürurla qarşıladıq. Şəhidlər ölmür, onlar hər zaman bizim qəlbimizdə yaşayacaq". Müharibəyə gedəndə övladlarına "Mən işə gedirəm, şənbə günü geri qayıdacağam", - deyib yola düşür. Bu son görüş, son vida olur. Ana və övladın son görüşü. Dəhşətli olsa da övladların yaşının az olmasına baxmayaraq, vətən yolunda şəhid olmağın nə qədər böyük şərəf olduğunu yaxşı anlayırlar. Anlayırlar ki, şəhidlər ölmür. Bu torpaq var olduqca onlar da yaşayacaq. Onların qanı ilə suvarılıb, bu torpaq.

Milyonların sevgisini qazanan yeganə xanım şəhid Arəstə Baxışovanın gənc heykəltaraş Müstəqil Balayev büstünü hazırlayıb. Əlbəttə ki, Arəstə kimi vətənpərvər xanımların yetişməsində qələmi ilə, şəfqətli əlləri, iti qələmi ilə vətən darda olanda mən də bir vətənin daşıyam deyərək, cəbhəyə yola düşən xanımların həyat yolundan dərs alıb. Gültəkin Əsgərova, Salatın Əsgərova yolunun davamçısı oldu.

Vətənin köməyə ehtiyacında,
Yetdilər imdada dar ayağında.
Qanların tökdülər torpaq uğrunda,
Adın tarixlərə yazdı şəhidlər,
Haqqın dərgahına qalxdı şəhidlər!

"MƏN QƏLƏBƏNİN SONUNA QƏDƏR BURADAYAM"

1960-ci il noyabrın 20-də Bakı şəhərində anadan olan Gültəkin Əsgərova 1985-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş və əmək fəaliyyətinə 8 №-li təcili yardım stansiyasında başlamışdı. 1991-ci ildən Uroloji kliniki xəstəxanada işləmişdir. Qarabağ müharibəsi başladığı zaman, öz körpəsini anasına əmanət edərək, cəbhəyə erməni güllələsindən yaralanan əsgərlərə yardım etməyə yola düşür. Çətin illər idi. 1992-ci il aprelin 4-də könüllü cəbhəyə yollanıb, Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərir.

Şuşa şəhərinin həbsxanasında olanların da qapısının açıb azad olunmasında onun xidməti də olub. Həbsxananın qapısı açılmasaydı, orada olanlar əsir götürüləcəkdi.

1992-ci il mayın 8-də Şuşanın işğalından bir gün sonra Şuşanı sonuncu tərk edənlərdən biri olan Gültəkin anasına göndərdiyi məktubda belə yazırdı: "Ana, salam. Mən sağ və salamatam, hər şey normaldır. Bizə yaxşı yemək verirlər. Mən qələbənin sonuna qədər buradayam. Şuşa alınana qədər! Bəlkə də indi alınmadı."

Şuşanın işğalından sonra, Gültəkin Əsgərova Laçının, daha sonra isə Qubadlının müdafiəsində iştirak edir.

O, 1992-ci il mayın 14-də Ağdam istiqamətində gedən döyüşlərə yola düşür. Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi yenidən xidmətə başlayır. Aranzəmin yüksəkliyinin ətəyində onun tibbi xidməti üçün yer ayrılır. Buraya yaralıları hərbçilər gətirməliydi ki, o da əsgərləri müalicə etsin. Lakin atəş səslərinin gücləndiyini eşidir. Burada dayana bilməyib, Aranzəmin yüksəkliyinə qalxır. Aranzəmin yüksəkliyi uğurunda gedən döyüşdə 1992-ci il 19 iyul tarixində şəhid olub və Bakıda Şəhidlər Xiyabanında dəfn edilib. Əminə adlı qızı yadigar qaldı. Bir ananın övladı. Bu gün Gültəkinin ruhu şaddır. Göylərdə pərvazlanan ruhu azadlığı qovuşmuş torpaqlarımızın üzərində rahat nəfəs alır. Şuşamızın azadlığına tamaşa edir. Burada toplaşan insanlara Azad Şuşamızı bir daha düşmənə verməyin, - deyir. İşğalçı əməllərindən hali idi Gültəkin. İnləyən insanların ahnaləsini görmüşdü. Bu dəhşətləri yaşamış şəhid ruhu bu gün aramızdadır. Yolumuzda bizə yolçudur. Bu gün onun xatirəsi bizimlə bərabər yaşayır. Gültəkin Əsgərovanın oxuduğu 200 saylı orta məktəbə onun adı verilmiş və büstü qoyulmuşdur. Hər gün yüzlərlə məktəbli onun adını anır və büstü qarşısında bir dəqiqəlik sükut edərək, ayaq saxlayırlar. Vətənin qəhrəman qızı. Bakıda Nərimanov rayonundakı xəstəxananın önündə büstü qoyulub. Bakıda yaşadığı Mustafa Kamal Atatürk prospekti 2a ünvanındakı binaya xatirə lövhəsi vurulub. Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetinin Tibbi biologiya kafedrası onun adını daşıyır, kafedrada xatirə lövhəsi vurulub. Xəzərdə üzən gəmilərdən biri onun adını daşıyır, gəmidə muzeyi yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 1993-cü il tarixli 31 saylı fərmanı ilə Gültəkin Məlik qızı Əsgərova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bir şəhidimizin adının əbədiləşdirilməsi məqsədi ilə görülən işlər Vətən qızına olan ehtiramdır, sevgidir.

HƏYAT YOLU İGİDLİK, QƏHRƏMANLIQ, ŞÜCAƏT MƏKTƏBİ

Uşaqlıqdan öz möhkəm iradəsi ilə seçilən və sonradan bu iradəni əməli fəaliyyətində göstərən Salatın Əsgərova da bir şəhid ömrünü həyat yoluna, tərcümeyi-halına həkk etdi. 16 dekabr 1961-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olan Salatın 1979-cu ildə Bakı şəhərində Mikayıl Müşfiq adına 18 saylı orta məktəbi əla qiymətlərə başa vurur və həmin il Azərbaycan Neft və Kimya İnstitutuna daxil olur. 1984-cü ildə geofizika ixtisası üzrə mühəndis diplomu alan Salatın Əsgərova jurnalistika sahəsinə böyük maraq göstərir. Nəticədə 1984-cü ildə müqavilə ilə "Bakı" qəzetində, 4 il sonra isə "Molodyoj Azerbaydjana" qəzetində işləməyə başlayır. Onun toxunduğu məsələlər Azərbaycan torpaqlarının bütövlüyü ilə bağlı idi. O, tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı. O, 1991-ci ilin yanvarın 8-dən 9-na keçən gecə Bakıdan Şuşaya yola düşür. Öz peşə borcunu yerinə yetirmək üçün. Lakin Salatın Əsgərova düşmən gülləsinə tuş gəlir. Salatın Əsgərova Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilir.

Ailəli idi, Ceyhun adlı oğlu yadigar qalır. Ölümündən sonra Beynəlxalq Jurnalistlər İttifaqı Konfederasiyasının laureatı adına layiq görülüb. Salatın Əsgərovanın yaxınlığında həlak olduğu kənd Salatın kəndi adlanır. Onun Bakıda yaşadığı binada xatirə lövhəsi vurulub. Bakıda küçələrdən biri, Bakı buxtasında gəzinti gəmisi və Qadınlar İctimai Birliyinin təsis etdiyi mükafatı onun adını daşıyır. Təfəkkür Universitetində büstü qoyulmuşdur.

Azərbaycanın şəhid xanımları. Vətənin keşiyində durmağı bacaran, döyüşdən qorxmayan, lazım gələrsə, silaha sarılan Azərbaycan qadınları. Onların hər birinin həyat yolu məktəbdir, igidlik, qəhrəmanlıq, şücaət məktəbidir. Hər birinin adı dillərdə əzbər, dastandır. Azərbaycan qadının əzəməti dünyaya bəllidir. Sizlərin qoynundan su içdiyiniz Azərbaycan, məhz belə övladlar yetirir və ona görə də bu torpaq basılmaz.

Zümrüd BAYRAMOVA

Soçidə vacib görüş: son qərar nə oldu?

17 gün ərzində iki ölkə liderləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin söhbət mövzuları dəyişməsə də, vəziyyət dəyişib

Prezident Rəcəb Tayyib Ərdoğan Soçiyə bir günlük işgüzar səfəri çərçivəsində Rusiya prezidenti Putinlə görüşüb. Prezident Ərdoğan inandığını bildirib ki, Suriyadakı hadisələrə xüsusi diqqət yetirməyimiz bölgəyə də rahatlıq gətirəcək. Rusiya prezidenti Vladimir Putin isə qeyd edib ki, Avropa Rusiyadan fasiləsiz təbii qaz axınına görə Türkiyəyə minnətdar olmalıdır.

Hər iki ölkənin nümayəndə heyətlərinin Türkiyədə keçirdiyi görüşlərin səmərəli keçdiyini qeyd edən Ərdoğan bildirib ki, siyasi, iqtisadi və ticarət sahələrində bir çox mövzular müzakirə olundu və inanıram ki, indi bu məsələlərə Soçidə son qoya biləcəyik, Türkiyə-Rusiya əlaqələrində çox fərqli bir səhifə açılacaq. Həm enerji, həm də Qara dəniz xəttində kənd təsərrüfatı və taxıl sektoru, məhsulların daşınmasında atılan addımlar, turizmlə bağlı aparılan danışıqlar, nəqliyyatla bağlı görülən işlər, eləcə də bəzi digər yanaşmalar öz həllini tapmaqdadır. Bu, bizim nümayəndə heyətlərimizin bölgə ikitərəfli əlaqələrin inkişafı ilə bağlı atdığı addımlardır, lakin bu gün Türkiyə və Rusiya ilə də ikitərəfli görüşümüzdə oxşar məsələlər müzakirə olunur. Bu, Türkiyənin bölgədə oynadığı rolu ortaya çıxarmaq baxımından çox əhəmiyyətlidir".

Suriya mesajı

Ərdoğan Putinlə görüşündə bildirib ki, Suriyadakı hadisələrə xüsusi diqqət yetirməliyik. Bununla da bölgəyə sabitlik gətirəcək. Terrorla mübarizədə həmrəyliyimiz böyük əhəmiyyət kəsb edir və inanıram ki, bu məsələ ilə bağlı atacağımız addımlar və apardığımız danışıqlar məntiqi nəticəsini verəcək. Bu gün təbii ki, dünyanın gözü Soçidədir. Görəsən, Soçidə nə müzakirə etdilər? Onlar keçirəcəyimiz bu görüşlərdən sonra onlara veriləcək cavabları gözləyirlər.

Akkuyu məsələsi böyük əhəmiyyət kəsb edir. Bu gün enerji sahəsində Akkuyu məsələsini sizinlə bir nöqtəyə gətirmək, həqiqətən də müəyyən bir yerdə dəyərləndirib qərara gəlməliyik. Bu müzakirələr Akkuyudakı prosesi təxirə salmağa imkan verməyəcək. Çünki müəyyən edilən təqvimin işləməsi və Akkuyunun göstərilən vaxtda tamamlanması çox vacibdir. Çünki Akkuyu Elektrik Stansiyası Türkiyənin enerji təchizatında enerji potensialının 10%-ni idarə edəcək və hesab edirəm ki, bu mövzuda ətraflı müzakirə aparmağımız faydalı olar. Mən də bu gün belə bir fürsətin olmasından məmnun olduğumu bildirmək istərdim".

Putin: "Avropa Türkiyəyə minnətdar olmalıdır"

Rusiya prezidenti Vladimir Putin deyib ki, Avropa Rusiyadan fasiləsiz təbii qaz axınına görə Türkiyəyə minnətdar olmalıdır: "Bugünkü Soçi görüşündən əvvəl iqtisadi məsələlərə cavabdeh olan Rusiya qurum və təşkilatlarımız sizin dəvətinizlə Türkiyəyə gəldi. Türkiyədə keçirilən bu görüşlərdə ikitərəfli əməkdaşlığımızın bütün mühüm əsas ölçülərini müzakirə etdilər. Müzakirə olunacaq çoxlu məsələlər var. Bizim ticarət dövriyyəmiz bu il 70% faiz artıb. Əslində ilin birinci rübündə iki dəfə artıb. Həmçinin həyata keçirdiyimiz çoxlu strateji layihələr var, məsələn, Akkuyu Atom Elektrik Stansiyası. Bizim enerji sektorunda da bəzi layihələri - Türk axını layihə xəttini tamamladıq. Rus qazını Avropaya çatdıra biləcəyimiz mühüm boru kəmərlərindən biri Türk axını tam şəkildə işləməyə davam edir. Türkiyə təkcə təbii qaz daşımır, qazımızı da Avropadakı istehlakçılara ötürür. Avropadakı istehlakçılar Türkiyədən Rusiya qazını ala bildiyi üçün Türkiyəyə minnətdar olmalıdırlar. Türkiyəyə heç bir çətinlik çəkmədən kömür və təbii qaz ixrac edirik".

İyulun 22-də İstanbulda Ukrayna, Rusiya, Türkiyə və Birləşmiş Millətlər Təşkilatının (BMT) imzaladığı taxıl daşınması müqaviləsinə toxunan Putin qeyd edib ki, Ukrayna taxılının Qara dəniz limanlarından BMT və Türkiyə vasitəsilə daşınmasına başlanmasında uğur əldə edilib. Görülən bu işlərə görə Türkiyəyə təşəkkür edirəm. Rus ərzaq məhsullarının və rus gübrələrinin dünyaya bu şəkildə açılmasını istəyirəm.

Bu xüsusilə inkişaf etməkdə olan ölkələr üçün çox həssas məsələdir. Çünki dünya ölkələri ərzaq böhranı səbəbindən ciddi problemlərlə üzləşə bilərlər. Bütün bu ölkələr sizin qəbul etdiyiniz qərarlara əhəmiyyət verirlər. Bütün bunlar sizin şəxsi töhfələriniz sayəsində mümkün olub. Ümid edirəm ki, bu gün biz ticarət və iqtisadi əlaqələrimizin inkişafı ilə bağlı anlaşma memorandumunu imzalaya biləcəyik. Bu, razılaşmalar sayəsində olub. Türkiyədəki nümayəndə heyətləri tərəfindən əldə edilmişdir".

Qeyd edək ki, Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan cümə günü - əvvəlki görüşdən cəmi 17 gün sonra Soçidə danışıqları başlayıb. Bu yaxınlarda keçirilən Rusiya-Türkiyə sammitlərindən fərqli olaraq, iki lider bu və ya digər münaqişəni təcili olaraq söndürməli olmayacaq, lakin onların danışıqlarının nəticəsi həm Suriyada, həm də vəziyyətin gərginləşdiyi Qarabağda genişmiqyaslı hərbi əməliyyatların baş verdiyi dönəmdə hadisələrin inkişafına böyük ölçüdə təsir göstərir. Prezidentlər Ukrayna məsələsindən də yan keçməyəcəklər. Kreml həmçinin enerji sektorunda strateji layihələrin müzakirə edildiyini açıqlayıb. Onların arasında son günlər Türkiyədə böyük siyasi qalmaqalın yaşandığı "Akkuyu" AES-in tikintisi də var.

Tez-tez görüşmələrinə baxmayaraq, Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin arasında həmişə müzakirə ediləcək bir şey var. Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan bu dəfə Soçidə görüşürlər. Kremlin dediyi kimi, təfərrüatlara varmadan, "Rusiya-Türkiyə çoxşaxəli əməkdaşlığının mövzularını, o cümlədən ticarət-iqtisadi əlaqələrin daha da genişləndirilməsi perspektivlərini və enerji sektorunda birgə strateji layihələrin həyata keçirilməsini ətraflı müzakirə etmək, habelə "beynəlxalq gündəliyin aktual məsələləri üzrə fikir mübadiləsini davam etdirmək planlaşdırılır".

İki liderin əvvəlki görüşü iyulun 19-da Tehranda baş tutub. Həmin görüş İran prezidenti İbrahim Rəisinin də iştirak etdiyi "Astana formatı" üzrə üçtərəfli sammit çərçivəsində keçirilib. Eyni zamanda, Rusiya və Türkiyə liderləri ikitərəfli formatda danışıqlar aparmağa nail olublar. Daha sonra Vladimir Putin həmkarına "ərzaq məsələləri üzrə danışıqlar üçün Türkiyə platforması təqdim etdiyinə", yəni Qara dəniz vasitəsilə taxıl ixracına görə təşəkkür edib. Suriya və Qarabağdakı vəziyyətlə bağlı da suallar qaldırılıb.

Eyni zamanda, hadisələrin müsbət inkişafı yalnız taxıl daşınması məsələlərində baş verib. İyulun 22-də İstanbulda Qara dəniz limanlarından Ukrayna taxılının göndərilməsi şərtləri, habelə Rusiya ərzaq və gübrələrinin ixracına qoyulan məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı iki sənəd imzalanıb. Sazişlərin icrası çərçivəsində bu həftə göyərtəsində Ukrayna qarğıdalı olan ilk quru yük gəmisi Odessadan Livanın Tripoli limanına yola düşüb. Razılaşdırıldığı kimi o, İstanbulda Birgə Koordinasiya Mərkəzinin təftiş qrupu tərəfindən yoxlamadan keçib.

İndi Ukraynanın üç limanında öz növbəsini gözləyən gəmilərin qalan hissəsi bu yoldan keçməlidir. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun həftənin əvvəlində Twitter-də yazdığı kimi, Ankara taxılla bağlı razılaşmaların Ukraynada "atəşkəs və sabit sülhün təmin edilməsi üçün" əsas rol oynayacağına ümid etdiyini bildirib. Türkiyə Rusiya-Ukrayna münaqişəsinin həllinə nail olmaq ambisiyalarını gizlətmir. Moskva öz tərəfdaşını ictimaiyyət qarşısında məyus etməməyə çalışır, lakin hələlik Ankaranın taxıl məsələsinin əsas tənzimləyicisinə çevrilməsindən başqa bu istiqamətdə başqa perspektivi yoxdur. Ancaq Soçidə Rusiya-Türkiyə sammitində Ukraynada nizamlanma mövzusunun qaldırılacağı sözsüz ki, istisna edilmir.

Mayın ortalarından etibarən cənab Ərdoğan Suriyanın şimalında YPG-yə qarşı növbəti hərbi əməliyyatla hədələyir ki, bu da Türkiyə-Suriya sərhədi boyunca 30 kilometrlik bufer zonasının yaradılması ilə nəticələnməlidir. Baxmayaraq ki, qeyri-müəyyən səbəbdən Moskva və Tehran Ankaranın planına qarşıdır.

Ötən iki ay yarım ərzində Prezident Ərdoğanın tammiqyaslı quru hərbi əməliyyatlara başlamaq planları hələ də reallaşmayıb. Lakin bu o demək deyil ki, Türkiyə lideri öz planlarından əl çəkib. Son həftələr Suriyanın şimalında atmosfer son həddə qədər qızışıb. Suriya müxalifəti döyüşçüləri YPG anklavlarına, eləcə də tərkibində olduqları Suriya Demokratik Qüvvələrinin (SDQ) mövqelərinə davamlı olaraq minaatan və artilleriya zərbələri endirir. Türkiyə pilotsuz təyyarələrinin zərbələri ilə bağlı xəbərlər də tez-tez yayılıb. Səudiyyə Ərəbistanının "Ash-Sharq al-Awsat" qəzetinin qeyd etdiyi kimi, vəziyyət bu həftə - Rusiya və Türkiyə prezidentləri arasında danışıqlardan əvvəl xüsusilə gərginləşib. Üstəlik, söhbət təkcə Türkiyənin gülləbaran etməsindən deyil, həm də Suriya ordusunun müxalifətin nəzarətində olan ərazilərə, o cümlədən İdlib əyalətinə endirdiyi zərbələrdən gedir.

Bunun fonunda Suriya ordusu Rusiya hərbçilərinin iştirakı ilə genişmiqyaslı təlimlər keçirib. Eyni zamanda sosial şəbəkələrdə SDQ döyüşçülərinin ilk dəfə olaraq Suriya ordusuna qoşulması ilə bağlı şayiələr yayılıb. Rəsmi olaraq, bu məlumat nə Rusiya, nə də Suriya tərəfi tərəfindən təsdiqlənməsə də, onu çox hörmətli ərəb mediası, o cümlədən Əl-Cəzirə telekanalı və Əl-Şərq əl-Avsat qəzeti götürüb. Bu isə, açıq-aydın, Soçi danışıqları öncəsi ab-havanı qızışdırır.

Xatırladaq ki, Rəcəb Tayyib Ərdoğanın Soçiyə səfəri ərəfəsində Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizində sözün əsl mənasında ciddi gərginlik baş verib. Lakin politoloqların fikrincə, burada Moskva ilə Bakı arasında razılaşmalar əsas rol oynayacaq. Lakin istisna deyil ki, Rusiya və Türkiyə liderləri quru sərhədini tezliklə açmaq niyyətində olan Ankara ilə Yerevan arasında yaxınlaşma, eləcə də regionda digər kommunikasiyaların açılmasını müzakirə edə bilərlər. 2020-ci ilin noyabr ayından etibarən Ankara və Bakıda əsas layihə Zəngəzur dəhlizi hesab olunur - Bakıdan Naxçıvana və daha sonra Ermənistanın Sünik bölgəsi ilə Türkiyəyə gedən avtomobil və dəmir yolu. Bundan əlavə, Rəcəb Tayyib Ərdoğan Ağdamdakı müşahidə mərkəzində çalışan türkiyəli mütəxəssislərin daha fəal rol oynaması məsələsini qaldıra bilər. Onlar orada 2021-ci ilin əvvəlindən yerləşiblər, lakin rusiyalı həmkarlarından fərqli olaraq, onlar son dərəcə qeyri-fəaldırlari.

Türkiyəli politoloq, "Valday" beynəlxalq diskussiya klubunun eksperti Həsən Səlim Özərtəm müsahibəsində qeyd edib ki, ən mühüm mövzu Rusiyanın "Rosatom" şirkəti tərəfindən tikilən Akkuyu AES ətrafında vəziyyət ola bilər. Ötən gün şirkət stansiyanı tikən podratçını dəyişib. Türkiyənin "İC İçtaş" şirkəti ilə müqavilə gecikmə səbəbindən ləğv edilib, lakin podratçı bu qərarla razılaşmayıb və məhkəmədə iddiasını müdafiə etmək niyyətindədir. Türkiyənin Energetika və Təbii Sərvətlər Nazirliyi tərəflər arasında mübahisəni həll etməyə çalışdıqlarını, lakin problemin artıq siyasi məcraya keçdiyini bildirib: ölkənin aparıcı müxalifət siyasətçiləri, Cümhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğlu və İyi Partiyanın başqanı Meral Akşener IC İçtaşı müdafiə ediblər. Xüsusən də cənab Kılıçdaroğlu yeni podratçı olan TSM Enerjinin "üç Rusiya şirkətinin konsorsiumu" olmasından qəzəblənib. Onun fikrincə, bu, digər məsələlərlə yanaşı, Türkiyənin enerji sektorunun Rusiyadan asılılığıdır.

Bəli, Soçidə Ərdoğan-Putin görüşü baş tutdu. Təfərrüat qismən də olsa mətbuara açıqlandı. Bu görüşdən hərə öz hesabını götürdü, hər kəs öz çıxarını etdi. Bəs sonra? Qarabağ məsələsi də daxil regionda baş verən hadisələrin sonu, yaxud qeyri-regional aktorların bölgəyə təsirinin yekunu olacaqmı? Güman ki, hələ bu xəmir çox su aparacaq. Əsas geosiyasi gerçəkliyə öz yanaşmamızı tənzimləməyimizdir. Ki, bədnam qonşularımızın hər an baş qaldıran təxribatını neytrallaşdıra bilək...

V.VƏLİYEV

Erməni faşist ideologiyası: əməli izlər tarixi sənədlərdə

Mi-24 helikopterinin vurulmasından 30 il ötür

Dövrümüzün ən təhlükəli təzahürlərindən olan terrorizmin acı nəticələrini hələ də yaşamaqdayıq. Terror aktları insan tələfatları ilə nəticələnir və güclü psixoloji gərginliklər yaşanılır. Real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir və müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycan da zaman-zaman ermənilər tərəfindən terror aktları törədilmiş terror aktlarının acı nəticələrini yaşayıb.

Vurğulamaq yerinə düşər ki, təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb.

Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir və hadisələri ardıcıllıqla izləsək, görərik ki, ötən əsrin əvvəllərində - 1905-1906 illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Hadisələrin davamı olaraq 1918-ci ilin mart ayında soyqırımı törədiblər. 30 martdan 4 aprel tarixinə qədər ermənilərin törətdikləri cinayətlər nəticəsində minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilib. Ermənilər evlərə od vurub, insanları diri-diri yandırıblar. İnsanlığa sığmayan bir vəhşilik törədiblər. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri də dağıdaraq, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilib. Onu da qeyd edək ki, erməni vandallığının nəticəsində azyaşlılar və silahsız qadınlar xüsusi qəddarlıqla qətlə yetirilib. Ermənilər Şamaxı qəzasında 1653-ü qadın və 965-i uşaq olmaqla ümumilikdə 7000-dən çox insanı soyqırıma məruz qoyublar. Şamaxıda 58, Quba ərazisində 122, Qarabağın Dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan Quberniyasında 211 kənd yerlə yeksan olunub. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu köməyə gəlməsəydi, bu qırğının miqyası daha dəhşətli olardı. Daşnak quldur dəstələrinə qarşı vuruşlarda 5 min azərbaycanlı və min nəfərədək türk həlak olmuşdur. 1988-ci ildən başlayaraq erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. Qukarkda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürülür, onların 21-i qadın 6-sı uşaq olur. Vardenis rayonunda isə 40 nəfər öldürülür. Soydaşlarımız - 250 min azərbaycanlı öz ev-eşiyindən, tarixi torpaqlarından qovulur.

TERROR, SUİ-QƏSD VƏ HÜCUM AKTLARI

Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. Xocalı soyqırımı erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır.

Xocalıda terror əməliyyatının planı əvvəldən hazırlanmışdır. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olun xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə edilmişdi.

Bəli, ermənilər terroçudurlar. Tarixi faktlar bunu göstərir. Düz 31 il bundan əvvəl 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpü partladılmışdır. Cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və

15 il müddətində azadlıqdan məhrum olmuşdur. Bu o illərdə Xankəndidə törədilmiş ilk və son terror deyildi. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, şəhərdə terror, sui-qəsd və hücum aktları kifayət qədər törədilib. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndidə ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi ermənilər Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu, bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki, 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. Bütün bunlar tarixin danışan faktlarıdır.

1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusunun partladılması hər kəsin yaxşı yadındadır. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları



məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Qəsəbə 3 nəfəri itirir. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin, ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. 1994-cü il 18 mart tarixində Xankəndi səmasında erməni terrorçuları tərəfindən İranın Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 36 nəfər həlak olmuşdur.

TERROR AKTI NEÇƏ-NEÇƏ İNSAN ÖLÜMÜNƏ VERİLƏN HÖKMDÜR

İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçimişdilər. Hələ sovet dövründə yaşadığımız illərdə 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi, Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu ermənipərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə "Noraşen-Bakı" yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür.

GƏNCƏDƏ, MİNGƏÇEVİRDƏ VƏ BƏRDƏDƏ TÖRƏDİLƏN QƏTLİAMLAR

Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur. Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Müharibə getməyən ərazilərimizdə Gəncədə, Mingəçevirdə, Bərdədə yaşından asılı olmayaraq uşaq da, gənc də, qoca da bu terrorların acı nəticəsini yaşamış oldu. Neçə-neçə qurbanlarımız oldu. Ermənistan hərbi-siyasi rəhbərliyinin Gəncədəki mülki obyekt və şəxslərə qarşı törətdiyi terror aktı dünyaya çatdırıldı. Gəncə şəhəri 4 oktyabr 2020-ci il tarixindən başlayaraq Ermənistan Silahlı Qüvvələri tərəfindən davamlı raket atəşinə tutuldu. 11 oktyabr 2020-ci il tarixində saat 02:00 radələrində Ermənistan Silahlı Qüvvələri daha bir terror törətdilər. Nəticədə "Qələbə parkı"nın ətrafında yerləşən yaşayış binaları dağılıb, 5-i qadın olmaqla 10 nəfər həlak olub, 6-sı uşaq, 16-sı qadın olmaqla 35 nəfər yaralanıb. Ermənistanın Gəncəyə terror aktı nəticəsində 3 uşaq hər iki valideynini itirib. Gəncədə olan ölkə və yerli əhəmiyyətli tarixi abidələrə, dini məbədlərə, mədəniyyət obyektlərinə, habelə təhsil müəssisələrinə ciddi ziyan dəyib. Digər şəhərlərdə Bərdədə, Mingəçevirdə də xalqımız bu ağrı və acıları yaşadı.

Tarixin bu günündə isə 6 avqust 1992-ci il tarixində 30 il bundan əvvəl Qarabağ müharibəsi zamanı Azərbaycana məxsus döyüş helikopteri Qasapet yaxınlığında ermənilər tərəfindən raketlə vurulub. Vertolyotun baş komandiri Zakir Məcidov, təyyarəçi operator Ruslan Polovinko, sərrast nişançı-snayperçi Cavanşir Rəhimov həlak olurlar. Bu erməni faşist ideolgiyasıdır. Balaca Zəhraların qətli faşist düşmənin təfəkkürü, mövqeyidir ki, bu terrorlardan xalqımız əziyyət çəkir.

Nəzakət ƏLƏDDİNQIZI

Azərbaycançılıq ideologiyası bizim üçün ən mühüm ideologiyadır

Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını vahid bir ideya ətrafında birləşdirir. Milli həmrəyliyi, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məhz azərbaycançılıq ideologiyasıdır. "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", deyən Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsasını qoydu və artıq hər bir azərbaycanlının qürur mənbəyi onun milli mənsubiyyətidir.

Ərazi bütövlüyünü qorumaq, milli birliyi, həmrəyliyi təmin etmək azərbaycançılıq ideologiyasının qayəsini təşkil edir. Əvvəla ona görə ki, torpaqlarımızın bundan sonra bir daha işğala məruz qalmaması, ərazi bütövlüyümüzün qorunması ən ümdə vəzifəmiz sayılır və bunun üçün milli birliyimiz, həmrəyliyimiz olduqca vacibdir. Biz bunun İkinci Qarabağ müharibəsi zamanı şahidi olduq və gördük ki, həqiqətən də həmrəyliyimiz, milli birliyimiz sayəsində torpaqlarımız işğaldan ən qısa zamanda azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Eyni zamanda milli birliyimiz, həmrəyliyimiz, bir sözlə, azərbaycançılıq ideologiyası Zəfər çalmağımıza əsaslı zəmin yaratdı və bizə qürur bəxş etdi. Biz bütün dünya azərbaycanlılarının xalqımızın milli-mənəvi dəyərlərini, xalqımıza məxsus olanları müdafiə etdiyinin, qoruduğunun əyani şahidi olduq və azərbaycançılıq ideologiyasının bizi, bütün azərbaycanlıları milli maraqlar ətrafında birləşdirən ən vacib amil olduğunu bir daha gördük.

Xatırladığımız kimi, ötən əsrin sonlarında, daha dəqiq desək, 1992-1993-cü illərdə bəzi qüvvələr etnik separatizmin vüsət almasına rəvac verirdi və bu zaman Azərbaycan parçalanma təhlükəsi ilə üz-üzə idi. "Talış-Muğan Respublikası" yaratmaq istəyinə düşənlər, Sadvalçılar və digər etnik-milli toplumlar etnik separatizmə geniş meydan açmışdılar ki, bu da Azərbaycanın parçalanması, vətəndaş qarşıdurması, xaosa gətirib çıxarırdı. Belə bir məqamda məhz Azərbaycan xalqının təkidli tələbi ilə dahi rəhbərin, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı, onun irəli sürdüyü azərbaycançılıq ideologiyası bütövlükdə ölkəmizi, dövlətimizi xilas etdi, xalqımızı təhlükələrdən qorudu və bu günkü qüdrətli, qalib Azərbaycanın əsası qoyuldu. Azərbaycançılıq ideologiyası ölkəmizdəki bütün milli-etnik toplumları birləşdirdi və bu ideologiyanın daşıyıcıları dövlət və millət amalında birləşməklə, qazandığımız Zəfərin təməlini qoydular.

Sirr deyil ki, İkinci Qarabağ müharibəsində döyüşənlər, canlarını torpaqlarımız uğrunda fəda edənlər arasında talış, avar, ləzgi və digər etnik mənsubiyyəti olanlar da az deyildi. Etnik mənsubiyyətindən asılı olmayaraq, müharibədə iştirak edən hər kəs torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsi, bütövlükdə Azərbaycan naminə canından keçməyə hazır olduğunu isbatladı. Bunun isə məhz elə azərbaycançılıq ideologiyası ətrafında birləşmə olduğu özü gəstərdi. Ona görə də bu gün cəsarətlə deyə bilərik ki, İkinci Qarabağ müharibəsində qazandığımız Zəfər, əldə etdiyimiz qələbə həm də azərbaycançılıq ideologiyasının qələbəsidir. Hamımız şahidi olduq ki, azərbaycançılıq ideologiyası artıq öz töhvəsini verdi və deməli bu ideologiya, azərbaycançılıq ideologiyası bütün azərbaycanlılar üçün, bizim üçün ən mühüm ideolgiyadır.

Azərbaycançılıq ideologiyası azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Etnik mənsubiyyətindən asılı olmayaraq özünü azərbaycanlı sayanların həmrəyliyi üçün azərbaycançılıq ideologiyası ən güvənli istinad mənbəyi, eləcə də ideoloji əsasıdır. Bu baxımdan da azərbaycançılıq ideologiyası bizi birləşdirən dəyər olub. Hal-hazırda gənclər arasında azərbaycançılıq ideologiyasının təbliğinin aparılması da təsadüfi, yaxud əbəs yerə deyil. Məqsəd vahid Azərbaycan naminə, dövlətimizin suverenliyi, torpaqlarımızın bütövlüyü, xalqımızın həmrəyliyi, birliyi və bizim birlikdə qüdrətli olmağımızı təmin etməkdir. Məhz buna görə də azərbaycançılıq ideologiyası artıq dövlət siyasətində xüsusi, önəmli yer tutur, çünki qalib ölkə olaraq, qalib ölkədə yaşayan insanlar olaraq azərbaycançılıq ideyası ətrafında birləşməmiz və bu ideologiyanı daha da inkişaf etdirməmiz üçün qazandığımız Zəfər kimi bir tutarlı səbəbimiz, əsasımız var.

Ordu, xalq və Ali Baş Komandanın birliyi bizi dəmir yumruğa çevirdi və İkinci Qarabağ müharibəsində qələbəmizi tezləşdirdi. Cəmi 44 gün ərzində işğalçı tərəf bu birlik, eləcə də dəmir yumruq qarşısında məğlub oldu və həmrəyliyimiz bizi ən tez zamanda qələbədən qələbəyə apardı. Milli-etnik mənsubiyyətindən asılı olmayaraq, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşən, canından, qanından keçən, şəhidlik zirvəsinə ucalanlar azərbaycançılıq ideologiyasını da ucaltmış oldular.

İnam Hacıyev

Erməni "şərəfli"si ilə şərəfsizinin fərqi...

...Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Laçın şəhərindən yan keçən yeni yolun tikintisi üzrə işləri başa çatdırır, bu layihə respublikanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələr arasında ən mühümlərindən biridir.

Layihə çərçivəsində alt qatın genişləndirilməsi xüsusi texnika vasitəsilə aparılır. Torpaq işləri başa çatdırılmış ərazilərdə asfalt-beton örtüyü döşənir, yol cizgiləri çəkilir, yol nişanları və qoruyucu hasarlar quraşdırılır.

Yol çətin relyefli ərazidən keçdiyi üçün lazımi yerlərdə beton arxlar çəkilib, müxtəlif diametrli su boruları çəkilib. Uzunluğu 149,5 metr, eni 13,5 metr olan dörd aşırımlı avtomobil körpüsünün tikintisi başa çatdırılmışdır.

Bütün işlər Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin nəzarəti altında qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla həyata keçirilir.

Laçın şəhərinin dolama yolunun tikintisinə 2021-ci ilin iyulunda başlanılıb, yolun ümumi uzunluğu 32 km-dir (bunun 10 km-i Ermənistandadır).

Xatırladaq ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Sazişin 6-cı bəndinə əsasən, üç il ərzində Rusiya sülhməramlılarının postlarının müvafiq olaraq yenidən yerləşdirilməsi ilə Laçından yan keçən alternativ dəhliz tamamlanmalıdır. Qeyd edim ki, bunu rus saytları yazırlar. Bəs...

...Ermənistan isə yolun öz hissəsinin tikintisinə bu ay başlamağı planlaşdırır. Qeyd edək ki, Azərbaycan ermənilərə Laçın dəhlizindən keçən marşrutun dəyişdirilməsi üçün ən çox sentyabrın 1-dək vaxt verib.

Qeyd edək ki, bunu Ermənistan parlamentinin müxalifətçi deputatı Tiqran Abramyan erməni saytlarına bildirib.

Maraqlıdır ki, o, Ermənistan XİN-in marşrutun dəyişdiriləcəyi təqdirdə yol rejiminin dəyişdirilməsi təhlükəsi ilə bağlı bəyanatını da xatırladıb. Bəs, belə olan halda niyə bu müddət ərzində Ermənistan yeni tikinti ilə bağlı məsələ qaldırmayıb?

Qeyd edim ki, sualı Abramyan verir. Abranyanın pərdəarxası adlandırdığı səlahiyyətlilər bu marşrutla, Laçın, Zabux və Susanın "transferi ilə razılaşsalar"(?) da, niyə bundan irəli gələn addımları atmadılar?

Nə qədər qəribə də olsa, "yolun Ermənistana məxsus hissəsinin çəkməyəcəyi təqdirdə, bunun böyük problemlər yaradacağını anlayaraq, tikməyiblər" - deyən erməni deputat əlavə edir ki, guya "Azərbaycanın Ermənistana təzyiqi zaman keçdikcə daha da artsa da lakin genişmiqyaslı müharibə ehtimalı azdır".

Deyim ki, əgər bunu Ermənistan parlamentinin "şərəfli" fraksiyasından olan biri deyirsə, onda bunların şərəfsizlərindən nə gözləyəsən?

Ağasəf Babayev

Xalq öz qəhrəman oğullarını unutmur!

Lerikdə şəhid Mövlanov Altay Tahir oğlunun xatirəsi anılıb

Lerik rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov, Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının sədri Malik Mirzəyev, hüquq-mühafizə orqanları, ictimaiyyət nümayəndələri, şəhid ailə üzvləri ilk öncə şəhid Altay və Elgün Mövlanov qardaşlarının adına inşa olunan bulaq kompleksini ziyarət etmişlər.

dilər. Qeyd edək ki, şəhid Mövlanov Altay Tahir oğlu 2000-ci il avqustun 5-də Lerik şəhərində anadan olub. 2006-2017-ci illərdə Milli Qəhrəman Valeh Müslümov adına Lerik şəhər 2 saylı tam orta məktəbində təhsil alıb. 2018-ci ildə Milli ordu sıralarında hərbi xidmətə başlayan Altay 2020-ci ilin aprel ayında ordudan təxris olunur. Vətən sevgisi, torpağlarımızı düşmən tapdağından azad etmək istəyi onu yenidən ordu sıralarına qaytarır. O, Müddətdən Artıq Hərbi Xidmət Qulluqçusu kimi xidmətə başlayır. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində qəhrəmanlıq göstərərək düşmənə qan udduran, xeyli sayda canlı qüvvəsini məhv edən Altay 29 oktyabr 2020-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mövlanov Altay ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Sonra şəhidimizin məzarı önünə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad ediblər. Eyni zamanda, şəhid Mövlanov Altay Tahir oğlunun qardaşı şəhid Mövlanov Elgün Tahir oğlunun da məzarı ziyarət edildi. Daha sonra tədbir iştirakçıları şəhidin ailəsini ziyarət etdi, onların qayğı və problemləri ilə maraqlandı. Ailə üzvləri ilə söhbət zamanı qəhrəmanlarımız Elgün və Altay Mövlanov qardaşlarının şərəfli döyüş yollarından danışılıb, onların xatirəsi anılıb. Şəhidin valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə etmişlər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Şəhid Təbriz Quliyevin doğum günündə xatirəsi anılıb

Ağstafa rayonunda Vətən müharibəsi şəhidi Quliyev Təbriz İlqar oğlunun doğum günündə əziz xatirəsi yad olunub. Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev, Ağstafa rayon icra hakimiyyəti aparatının "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi"nin əməkdaşı Vüqar Həsənov, Ağstafa rayon Gənclər və İdman idarəsinin rəisi Əziz Məsmalıyev, şəhidimizin ailə üzvləri, şəhid ailələri, Ərazi Partiya Təşkilatının fəalları və rayon ictimaiyyətinin nümayəndələri şəhidin məzarını ziyarət ediblər, məzarı önünə gül dəstələri düzüblər və ruhuna dualar oxuyublar. Tədbir çərçivəsində şəhidimizlə eyni məzarlıqda uyuyan digər şəhidlərin məzarları da ziyarət olunub, məzarları önünə gül dəstələri düzülərək əziz xatirələri yad edilib.

Daha sonra tədbir iştirakçıları şəhid Təbriz Quliyevin ailə üzvlərini ziyarət edərək, onların qayğıları ilə maraqlanıblar, dərin hüzünlə başsağlığı veriblər. Söhbət zamanı şəhidimizin keçdiyi şərəfli həyat və döyüş yolundan geniş bəhs edilib. Şəhidimizin ailəsi dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıya görə cənab Prezident, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Təbriz Quliyev 2020-ci il oktyabr ayının 27-də Vətən müharibəsi döyüşlərində şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən o, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid Ülvi Məmmədovun ailəsi ziyarət edilib

Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının əməkdaşları, 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğlu, Quba rayonunun Alekseyevka kəndindən olan şəhidimiz Məmmədov Ülvi Vüqar oğlunun doğum günü ilə əlaqədar ailəsini ziyarət etmişlər. Ziyarət zamanı şəhidimizin xatirəsi ehtiramla yad edilib, güşəsinə baxış keçirilib, ailə üzvlərinin xatirələri dinlənilib, şəhidlik zirvəsinə ucalmış övladımızın hünərləri barədə, eləcə də şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısından söhbət açılıb. Şəhid ailəsinin qayğıları və problemləri ilə maraqlanılıb. Şəhid və qazilərimizin qələbənin təmin olunmasındakı fədakarlıqları Cənab Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ən yüksək səviyyədə dəyərləndirildiyi, onları narahat edən problemlərin həlli ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildiyi qeyd edilib. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər. Xatırladaq ki, Ülvi Məmmədov müharibənin ilk günündən Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə savaşıb. O, oktyabrın 21-də Xocavənd rayonunun Zoğalbulaq kəndində düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Şəhidimiz oktyabrın 23-də Alekseyevka kənd qəbiristanlığında dəfn olunub. Subay idi. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Ülvi Məmmədov ölümündən sonra Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", " Cəbrayılın azad olunması görə" medalları ilə təltif edilmişdir. Vətənimizin bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda

şəhid olan bütün Şəhidlərimizin əziz xatirəsini ehtiramla anırıq. Məkanları cənnət, ruhları şad olsun. Nə qədər ki Azərbaycan xalqı yaşayır, Vətən yolunda canını qurban vermiş övladlarını heç zaman unutmayacaq, onların əziz xatirəsini qəlbində daim yaşadacaqdır. Allah bütün Şəhidlərimizə rəhmət etsin!

Nəzakət ƏLƏDDİNQIZI

Xərçəngin yaranma risklərini necə azalda bilərik?

Keçən il dünyada 19,3 milyon insan xərçəng xəstəliyinə tutulub, onların yarıdan çoxu dünyasını dəyişib. Ümumdünya Səhiyyə Təşkilatı vurğulayır ki, aşağı və orta gəlirli ölkələrdə diaqnostika və müalicənin keyfiyyətsiz olması səbəbindən bu xəstəlikdən ölüm halları xeyli yüksəkdir.

Gec-tez planetin hər beşinci sakini xərçəng xəstəliyinə tutulur. Hər 8-ci kişi və hər 11-ci qadın bu xəstəlikdən ölür. Xərçənglə bağlı ölümlərin 70%-i aşağı və orta gəlirli ölkələrdə baş verir. BMT-nin Xəbər Xidməti xəbər verir ki, bu cür rəqəmləri ÜST Ümumdünya Xərçənglə Mübarizə Günü ərəfəsində təqdim edir.

2020-ci ildə 19,3 milyon insan xərçəng xəstəliyinə tutulub, 10 milyon insan bu xəstəlik nəticəsində dünyasını dəyişib. Ən çox rast gəlinən xərçəng növü döş xərçəngidir. Sonra ağciyər xərçəngi, kolon xərçəngi və prostat xərçəngi gəlir. ÜST həmçinin bildirir ki, xərçəng uşaqlar və yeniyetmələr arasında əsas ölüm səbəbi olub. Hər il 400 min uşağa xərçəng diaqnozu qoyulur.

Mütəxəssislərin fikrincə, vəziyyət yalnız COVID-19 pandemiyası fonunda, səhiyyə sistemlərinin son həddə işlədiyi və bütün resursların koronavirusla mübarizəyə yönəldilməsi fonunda pisləşib. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, 2021-ci ildə xərçəngin müalicəsi pandemiya səbəbindən ölkələrin 40%-də hücuma məruz qalıb. Eyni zamanda, xərçəng xəstələrinin COVID-19-dan ölüm riski və xəstəliyin ağır gedişi var.

Xərçəng hadisələrinin sayı, eləcə də xərçəngdən ölənlərin sayı artmaqda davam edir. Proqnozlara görə, 2040-cı ildə xərçəngə yoluxma hallarının sayı 2020-ci ilə nisbətən 47% çox olacaq. Ən böyük artım yenə də aşağı və orta gəlirli ölkələrdə olacaq. Mütəxəssislər xərçəngin əsas səbəblərini unutmamağı və həyat tərzinizə müvafiq düzəlişlər etməyi təklif edir.

Siqaret çəkməyin;

spirtli içkilərin istehlakını məhdudlaşdırın;

formada qalın - müntəzəm idman edin, yaxşı yeyin, xüsusən də daha çox tərəvəz və meyvə yeyin;

sağlamlığınıza nəzarət edin və xərçəngə səbəb ola biləcək xəstəliklərə qarşı peyvənd olun - hepatit B və papillomavirusdan və s.

Açıq günəşdə çox vaxt keçirməyin.

Bir çox insanın şüurunda xərçəng və onkologiya ayrılmaz şəkildə bağlıdır, lakin onlar heç də sinonim deyillər. Onkoloji xəstəliklər - xərçənglə məhdudlaşmayan böyük bir təbəqədir. Bunlara, əlbəttə ki, bədxassəli şişlər daxildir, lakin müalicəsi mümkün olmayan, ancaq müşahidə edilənlər də var.

Təhlükəli onkoloji xəstəliyi xoşxassəli şişdən necə ayırd etmək olar?

Çoxlu bədxassəli yenitörəmələr (təxminən 200 ad) var və xərçəng də onlardan biridir. Bu anda xərçəng olduqca yayğıdır, lakin bədxassəli onkoloji xəstəliklərin bütün hallarının yarısını belə təşkil etmir. Dünya alimləri ağciyər xərçənginə qarşı sağlam hüceyrələri məhv etməyən dərman hazırlayırlar. Onların fikrincə, ciddi yan təsirlərə səbəb olmadan insanları effektiv şəkildə müalicə edə biləcək.

Alimlərin fikrincə, bu gün sisplatin əsaslı dərmanlar xərçəngin müalicəsində istifadə olunur ki, bu da xərçəng hüceyrələrinin böyüməsini ləngidə və dayandıra bilir, eyni zamanda sağlam olanları məhv edir ki, bu da xəstənin orqanizminin ümumi vəziyyətinə mənfi təsir göstərir.

Həmçinin yüksək aktivliyə malik birləşmə sintez ediblər və onun əsasında xərçəngə qarşı yeni dərman yaratmaq mümkün olacaq. Dərman yalnız xərçəng hüceyrələri üçün zəhərli olacaq və mənfi nəticələr olmadan bədəndən asanlıqla çıxarıla bilər.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, bu gün ağciyər xərçəngi kişilərdə ən çox yayılmış xərçəng növüdür. Qadınlarda daha çox döş xərçəngi özünü göstərir. Son ildə dünyada 2,21 milyon xəstəliyə yoluxma aşkar edilib, bu diaqnozu olan 1,8 milyon xəstə dünyasını dəyişib.

Baş onkoloq Azad Kərimli SİA-ya açıqlamasında dünyada digər xərçəng xəstəliklər kimi onkoloji xəstələrin sayında artım müşahidə edildyini qeyd edib. Bu, Azərbaycanda da belədir. Onkologiya sahəsində xəstələrin arasında artıma meyillilik var. Lakin burada demoqrafiq göstəricilərə nəzər yetirmək lazımdır. Əhalinin sayı çox olduğu yerlərdə istər-istəməz onkoloji və digər xəstəliklərin sayında artım müşahidə oluna bilər. Bu, gözlənilən-dir. Bir neçə il əvvəl Azərbaycanın əhalisi 6-7 milyon idisə, o zaman qeydiyyatda 28 min onkoloji xəstə var idi. Bu gün Azərbaycan əhalisinin sayı 10 milyondan çoxdur. Ümumiyyətlə, bu gün insanlar arasında xof yaradıblar ki, onkoloji xəstələr çoxdur, günü-gündən çoxalır. Bu, əsla belə deyil. Yoxlanmağa gələnlərin çoxu xəstənin yaxınlarıdır, onun yanında gələnlərdir. Qıraqdan baxanda isə çox görsənir.

Azərbaycanda ən çox hansı orqanın xərçəng xəstəliyi geniş yayılıb?

Azərbaycanda deyil, bütün dünyada statistik faktdır ki, kişilər arasında ağciyər xərçəngi, traxeya, prostat vəzisi, qadınlar arasında süd vəzisi, uşaqlıq boynunun xərçəngi geniş yayılıb. Məsələn, süd vəzisinin xərçənginin yaranmasında amillər çoxdur. Burada vaxtından tez ərə getmək və ya gec ərə getmək, tez doğmaq, gec doğmaq və ya uşağı əmizdirmək, keçirdiyi infeksion xəstəliklər də rol oynayır. Bu faktorlar üst-üstə yığanda xəstəliyin yaranmasına səbəb olan amil böyük olur. Problem əhalinin xəstəliklə maarifləndirməməsidir. Biz onkoloqlar tək qalmışıq. Bununla bağlı maarifləndirmə aparmaqda bizə heç kim kömək etmir. Camaat bu xəstəliklər haqqında məlumatdan uzaqdır. Bu gün onkologiyanın adı gələndə hər kəs birtəhər olur. Doğrudur, onkoloji xəstəliklərin müalicəsi üçün xaricə üz tutanlar var. Vəziyyət əvvəlki kimi deyil. Bizim "qonşudan geri qalma" prinsipimiz var. Əvvəl-axır qayıdıb bura gəlirlər. Bizdə aparılan müalicə Avropa və ya Amerikadan geri qalmır. Çünki biz Avropa, Amerika protokolları ilə işləyirik.

Ona görə də deyirəm ki, camaatda inam oyatmaq lazımdır. Birincisi, heç vaxt xəstəlikdən qorxmaq lazım deyil. Vaxtında diaqnoz qoyulduqda xərçəng yüz faiz müalicəyə tabe olan xəstəlikdir. Mən heç kəsin ürəyinə qorxu salmaq istəmirəm, əksinə, həmişə istəyirəm ki, camaat ürəkli olsun. Gəlsinlər, vaxtlı-vaxtında müayinə olunsunlar. Biz arzu edirik ki, heç kəsdə nəinki onkoloji, digər xəstəliklər də aşkar olunmasın, hamı salamat yaşasın. Qadınlar 35-40 yaşından sonra ildə bir dəfə, iki ildən bir mamaqrafiyadan keçməlidirlər - süd vəzilərini yoxlatmaq üçün. Çünki qadınlar arasında ən çox təsadüf olunan süd vəzinin və uşaqlıq borusunun xərçəngidir. İndi baxaq, görək gəlib keçirlər? Yox. Gedəcək öz gözəlliyi ilə bağlı hansısa bir əməliyyat etdirəcək, düzdür? Amma qadının gözəlliyi onun süd vəziləridir. Bu gün gənc analar uşağa süd vermir ki, görünüşü pozular. Hansı ki, bunlar da fəsadlar yaradır. Elə şeylər var ki, onlar təbiətin yazdığı və qaçılmaz qanunlardır, onlara hökmən riayət etmək lazımdır. Kişilərdə ən çox ağciyərin, prostat vəzin xərçənginə təsadüf olunur. Bu xəstəliklərə qarşı vaxtında mübarizə aparmaq vacibdir. Qidalanmasına gəldikdə xərçəng yaradan hüceyrələrin məhv edilməsində aktiv iştirak edən bir çox qidalar, meyvə və tərəvəzlər vardır.

Qoz-fındıq və tum xərçəng əleyhinə xüsusiyyətləri ilə tanınan aralıq pəhrizinin tərkib hissəsidir. Fındıq və tumun əlavə edilməsi bədəni zülallar, faydalı yağlar, vitaminlər, fitosterollar, minerallar və uzunömürlülük üçün lazım olan antioksidant xüsusiyyətləri kimi əsas qidalarla təmin edirlər. Ekspertlər bildirirlər ki, bu məhsullar aşağı glisemik indeksə malikdirlər, çəkiyə nəzarət etməyə kömək edir, aclıq hissini azaltmaqla kalori qəbulunu tənzimləyir, ürək xəstəlikləri və bəzi xərçəng növləri riskini azaldırlar.

Alimlər ümid edir ki, xərçəngə "əlverişli şərait yaradan pəhrizin" nəzərə alınması bu xəstəliyin müalicəsinin yaxşılaşdırılmasına kömək edə bilər. Asparaqin amin turşusudu, bu maddə isə zülal əmələ gətirən maddələrdən biri sayılır.

Xərçəng Araşdırmaları İnstitutunda xərçəngin aqressiv formasına tutulmuş siçanlar üzərində aparılmış tədqiqatın nəticələri göstərib ki, asparaqin az olan pəhriz siçanlarda xərçəngin inkişafını çətinləşdirib

Eyni zamanda ekspertlər qeyd edir ki, bu məsələyə dair aparılmış tədqiqatların nəticələri yoxlanmalıdır, xəstələrə isə öz pəhrizindən hansısa ərzaq növünu tamamilə xaric etmək məsləhət görülmür. Xərçəng xəstələrinə pəhrizi müalicə həkiminin məsləhəti ilə seçməyi tövssiyə olunur.



Havar Şəfiyeva

ARXAS DIPLOMA

"Ukrayndakı müharibə Qərb-Rusiya qarşıdurması kimi təqdim edilməlidir"

"Əslində Ukraynadakı müharibə Qərb-Rusiya qarşıdurması kimi təqdim edilməlidir. Ukraynaya isə demokratik sistemlə, diktatura sistemi arasında aparılan amansız mübarizə meydanına çevrilən poliqon kimi baxılmalıdır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev bildirib.

Onun sözlərinə görə, hadisələrə daha geniş pəncərədən nəzər salsaq, Rusiya-Ukrayna müharibəsinin aktiv fazada hələ bir müddət davam edəcəyini aydın görmək olar: "Bu iki xalqı bir-birinə düşmən edən qüvvələr münaqişənin konstruktiv yollarla həllində maraqlı deyil. Çünki, onların bu münaqişənin uzanmasında siyasi, iqtisadi və strateji umacaqları var. Qərb dünyası, xüsusən də ABŞ və İngiltərə üçün Ukraynadakı hazırkı vəziyyət yetərincə məqbul sayılır. Əgər biz iki qardaş xalqı bir-birinə düşmən edən ideologiyanın ana xəttinə baxsaq, açıq-aydın prosesin hara gedəcəyini rahatlıqla müəyyənləşdirə bilərik. Belə ki, Qərbin əsas istəyi Kremli beynəlxalq aləmdən təcrid emək və Rusiyanı mühribə ocaqları yaratmaqla, iqtisadi cəhətdən çökdürməkdən ibarətdir. Artıq demək olar ki, Qərb, bu istəyinə nail olur. Əgər Rusiya öz mövqelərini və təhlükəsizliyini qorumaq üçün bir vaxtlar Suriyada mübarizə aparırdısa, bu gün artıq öz sərhədlərində müdafiə xətti qurur. Bu da o deməkdir ki, Qərb tam Rusiyanın sərhədlərində oturub. Rusiyada iqtisadiyyat hər ötən gün üzü aşağı gedir. Həm də çox böyük sürətlə.

Bir sözlə, Putin Rusiyası ciddi mənada qan itirir. Belə olduğu halda Rusiya-Ukrayna müharibəsini körükləyənlərin əlinin tezliklə Kremlin boğazından çəkəcəyi inandırıcı görünmür. Çünki, Qərbin yuxarıda qeyd etdiyimiz kimi əsasəndə ABŞ və İngiltərənin istək və arzu bəllidir. Onlar yer kürəsinin ən zəngin və ən böyük qitəsi olan Avrasiyaya sahib olmaq istəyirlər. Bunun üçün də ilk növbədə Rusiya və Çini keçmək lazımdır. Qərbin bu istəyinə çatıb-çatmayacağı isə zamanla bağlı məsələdir. Hazırkı mövcud vəziyyət hadisələrin ABŞ-İngiltərə cütlüyünün xeyrinə işlədiyini göstərir. Bir sözlə narahat dünyamızın tezliklə stabilliyə qovuşacağını gözləmək özümüzü aldatmaq olardı. O cümlədən də Rusiya-Ukrayna müharibəsinin tez bir zamanda yekunlaşmayacağını düşünürəm".

Abutel İlhamqızı

Xalq təbabəti insanı aldadır?

"Xalq təbabəti bəzən toxunulmazlıqlarından istifadə edib ekstrimizmə doğru gedirlər. Misal olaraq ilanla, qurbağayla, arıyla və s. cürbəcür otlarla müalicə edirlər". Bu fikirləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib.

AİB sədri bildirib ki, xalq təbabətinin bu cür insanları aldatması yol verilməzdir və hansı otdan gəldi istifadə etmək məsləhətli hesab olunmur: "İnsanlar elə bilir ki, bütün kimyəvi dərmanlar otdan hazırlanır, əslində, bu belə deyil. Əksər dərmanlar kimyəvi qatqılardan hazırlanır. Hər bir insan narahatlıq hiss etdiyi təqdirdə bilmədiyi otları dəmləyib içməsi doğru deyil. İnsanların sağlamlığında bu ciddi narahatlıq doğurur. İnsanlar öz xəstəlikləri barədə həkim qəbulundan keçməli və analiz verməlidir. Klassik təbabət ilə akademik təbabət daima mübarizədədir. Akademik təbabət klassik təbabətdə nə varsa hər birini mənimsəyib. Akademik təbabət dünyada böyük epidemiyaların qarşısını alıb. Lakin xalq təbabəti akademik təbiətdən daha əvvəl mövcud olsa da, onun özünəməxsus xüsusiyyətlərini akademik təbabət mənimsəyib. Bununla belə akademik təbabət ilə xalq təbabəti bütün dünyada birgə şəkildə irəliləyir".

Banuçiçək Hüseynli

Heyif...

Bu günlərdə uzaq bir yolçuluğa çıxmışdıq. Qarşıda beş saatlıq yolumuz vardı. Yol boyu nə edəsən axı. Bir az sola baxırsan, şütüyən maşınlara, ha bax ki, baxasan. Bir az sağa baxırsan, bir-birinə pərçimlənmiş, qarşılarında antisanitariyanın son həddi yaşanan mağazalara tamaşa edirsən. Bir az qarşı tərəfə baxırsan, yol hərəkəti qaydalarını pozaraq hərəkət edən, işıq sürətli avtomobilləri görürsən, qorxudan başını aşağı salırsan ki, İlahi, bu dəqiqə üstümüzə gələcəklər.

Yaxşı ki, çox keçmir şəhərdən kənarlaşırsan, qarşıda rayonlara gedən yolların kənarlarında sıralanan ağaclar, göz baxdıqca uzanan yaşıllıqlar ruhuna rahatlıq gətirir. Elə bu an sürücü də şəhərin səs-küyündən uzaqlaşdığımız üçün sərnişinlərə musiqi töhfə etmək istəyir və radionu açır. Yəqin düşünür ki, yolkənarı gözəlliklərlə musiqi harmoniya yaratsın və xoş təəssüratlar bəxş etsin.

Yollar uzanır uzandıqca, radio da oxuyur oxuduqca. Biz də dinləyirik dinlədikcə. Birbirinin ardınca mahnılar başlayır, bitir. Biri bitəndə düşünürsən ki, görəsən indi hansı başlayacaq? Başlayır, nə edəsən, qulaq asmalısan. Qulaq asırsan və eşidirsən. Eşidirsən ki, müğənni oxuyur ki, dünya gözəli, vallah, billah, bu, dünya gözəli, etdi məni dəli, türkün məsəli ondan ötəri bir sümüyəm, bir dəri. Gup, gup, gup, bitir...

Hə, görək bundan sonra hansı başlayır? Bu dəfə elə bir guppultu başladı ki, iraq candan, dedim bəs, maşınımız qəzaya uğradı, bir xeyli sonra anladım ki, yox, qəza deyil, ritmdir. Gup, gup, gup, ardınca da müğənni oxuyur ki, mən yaman darıxmışam sənincün, sən də tez ol, darıxginən mənimcün...

Yaxşı, bu da bitir. Ardınca "Ləhləlülə" adlı bir mahnı dinləyirik. Vallah sözlərindən yadımda qalan bu oldu ki, "ləhləlülə şəhərdəyəm, ləhləlülə, kefimdəyəm...".

Mahnı bitir, həsrətlə gözləyirəm ki, görək bu dəfə nə eşidəcəyik. Bu dəfə həzin bir musiqi başlayır. Böyük ümidlə bayırdakı gözəl təbiətlə üst-üstə düşəcək bir mahnı gözləyirəm ki, bir qədər xəyallara dalam. Müğənni oxuyur: unut məni, unutmağı, mənsizliyi ağlından sil, bu yalanlar ordusuna qoşulmağa gücüm yoxdur...

Növbəti mahnı... Müğənni deyir ki, sənə görə həyatımdan hər kəsi sildim getdi, qəlbim səni edam etdi. Qulaq asdıq bu mahnıya da. Yol uzun, mahnı çox. Yeni-yeni o qədər mahnılar yazılıb oxunur ki... Hər gün yeni bir mahnı. Dinləyək də, nə etməli?..

Bu mahnı bitir, o biri başlayır. Müğənni oxuyur ki, küsmərəm gəldin, gəlmədin, sən getdin, mən gülmədim, heyif gətirə bilmədim, sevgi adlı dinə səni....

Bayaqdan bəri bir az yuxulamaq istəyirdim, mahnılar səslənəndən sonra yuxum qalxdı ərşə. Dedim yatmaq nədir axı, onsuz da ölüb gedib o dünyada əbədi yatacağıq. Qulaq as bu mahnılara. Hər gün "nə yazım, nə bişirim" dərdindən baş açmırsan, fürsətdir qulaq as... Asıram, müğənni oxuyur: eşq elə bir qüvvədi ki, eşq elə həngamədi ki, eşqə düşənlər dedi ki, bu sən düşən eşq nədir ki, eşq...

Yaxşı nə deyirəm ki, növbəti mahnı gəlsin. Bu dəfə həqiqətən ritmik bir mahnı səsləndi. Çox xoş gəldi ritmi. Müğənni də oxuyurdu ki, nə sətirlər yazdım, nə misralar çizdim, sənə bu şeiri yazdım, gülüm, gülüm, gülüm....

Xeyli xəyala dalmışam sən demə. Birdən növbəti mahnı məni neçə diksindirdisə, az qalsın başın maşının tavanına dəyəcəkdi. Şükür ki, qəzasız, filansız ötüşdük. Melodiya: gup, gup, gup. Müğənni isə oxuyurdu: şir həmişə şirdi, mənim qərdeşim, gecə saat on birdi, mənim qərdeşim...

Ta bu dəfə sürücüdən acizanə şəkildə radionu bağlamasını xahiş etdim. Ürəyim necə vururdusa, dedim bəs, indicə dayanacaq. Bilirsiniz niyə vururdu? Həm gup-gupun qorxusu hələ canımdan çıxmamışdı, həm də ürəyimə dolan nisgildən. Gözlərim yaşardı, inanın... Bütün yuxum-zadım ərşin 7-ci qatına qalxdı. Dedim bir analiz eləyim, görüm bu mahnıları, başa düşmədim axı. Sabah bir yerdə söhbət düşəcək, deyəcəklər geridə qalmısan, sən anlamazsan bu musiqilərdən. Vallah anladığım budur ki, bu mahnıları bir az da artıq dinləsəydim, birinci mahnıda deyildiyi kimi, bir dəri, bir sümük qalacaqdım.

Niyə mənə geridə qalmış desinlər ki? "Mən darıxmışam sənincün, sən də tez ol darıxginən mənimcün", yoxsa "sənə görə həyatımdan hər kəsi sildim" misralarına görə... Nə deyirsiniz deyin, ancaq kimisə özündən yana zorla darıxdıra bilməzsən. Bir də ki, kimə görəsə həyatından hər kəsi silə bilməzsən...

Geridə qalmışam, olsun. Ay irəlidə gedənlər, açdım Azərbaycan dilinin izahlı lüğətini, bu ləhləlülə sözünün mənasını bilmək üçün, axı bu sözü tapmadım. Gəlin siz tapın görək bunun mənası nədir? Mən bilmək istəyirəm ki, ləhləlülə nə deməkdir. Və yaxud da "çizdim" sözünü lüğətdə tapın, mənə də göstərin.

Yaxşı, siz gəlincə gözləyək, növbəti mahnıdakı "yalanlar ordu"sundan, "sevgi adlı din"dən danışaq. Maraqlıdır, yalanlar ordusu.... sevgi adlı din... Söz var ey, aşığın sözü bitən an, deyilmi?

Nə isə, yenə deyəsən çox uzun danışdım, bir söz də deyim, bitirim. Sonuncu mahnı: "şir həmişə şirdi mənim qərdeşim, gecə saat on birdi, mənim qərdeşim...". Ay müasirlər, deyin görək şirlə saatın nə əlaqəsi var? Günlərdi bu barədə düşünürəm. Nə olar, biriniz gəlin izah edin də...

Nə isə... Yolboyu iki məsələ üçün çox böyük təəssüf hissi yaşadım. Biri bu qədər mahnıdansa kaş ki, xalq, bəstəkar mahnılarımızdan çox yox, bircəsini dinləmiş olardım. Yüz ilin başı bir yol idi də, çıxmışdım... Bir də ona təəssüf etdim ki, pambıq nədir ki, onu götürüb çantama atmamışam. "Heyif, pambıq, heyif ki, burada yoxsan" dedim. Hirsimi də özümə tökdüm, dedim ki, indi canın çıxsın, qulaq as...

Mətanət MƏMMƏDOVA

"Ermənistan münaqişənin mənbəyinə çevrilərsə, Rusiya Federasiyası Azərbaycanın üzərinə düşən vəzifələri yerinə yetirməsinə imkan verəcək"

Məlum olduğu kimi, avqustun 3-də Qarabağdakı qanunsuz erməni silahlı birləşmələri Laçın istiqamətində Azərbaycan ordusunun mövqelərini intensiv atəşə tutub. Sıravi Kazımov Anar Rüstəm oğlu aldığı güllə yarasından dünyasını dəyişib. Azərbaycan Silahlı Qüvvələri erməni terrorçu qruplaşmalarına qarşı cavab əməliyyatına başlayıb.

Rusiya Müasir Dövlət İnkişaf İnstitutunun direktoru Dmitri Solonnikov və rusiyalı hərbi ekspert Vladislav Şurıqin erməni tərəfinin təxribatları nəticəsində yaranmış vəziyyətlə bağlı fikirlərini Caliber analitik mərkəzinə şərh ediblər. Ekspertlərin şərhlərini oxucularımızın diqqətinə çatdırırıq.

"Bakı erməni tərəfinin təşkil etdiyi bütün təxribatlara layiqli cavab verəcək"

Dmitri Solonnikovun sözlərinə görə, Qarabağda vəziyyətin gərginləşməsinə Ermənistan tərəfinin hərəkətləri səbəb olub: "Ermənistan bir sıra sazişləri yerinə yetirmir, xüsusən də sərhədin demarkasiyası, Zəngəzur dəhlizinin açılmasına başlanması, qanunsuz silahlı birləşmələrin Azərbaycan ərazisindən çıxarılması kimi şərtləri. İndiki çətin beynəlxalq vəziyyətdə Ermənistan hakimiyyətinin, necə deyərlər, çirkli suda balıq tutmağa çalışdığı daha aydın görünür. Həqiqətən də, dünya getdikcə mürəkkəbləşir, müxtəlif nöqtələrdə gərginlik artır- Çin-Tayvan təmasları zonasında, Serbiya və Kosovoda, Cənubi Qafqazda isə Ermənistanda gərginlik nöqtələri demək olar ki, eyni vaxtda alovlanır.

Digər tərəfdən, əgər Amerika müttəfiqləri dünyanın müxtəlif yerlərində diqqəti NATO və Avropa İttifaqına yönəltməklə təxribat təşkil etməyə çalışırlarsa, o zaman erməni diasporu niyə Ermənistan rəhbərliyini bu cür hərəkətlərə sövq etməyə çalışmamalıdır? Təbii ki, o, məhz bunu etməyə çalışır".

Ekspert deyir ki, Rusiya Qarabağda yeni tammiqyaslı müharibənin başlanmasına qarşıdır, ona görə də, 2020-ci ilin noyabrında 44 günlük müharibədən sonra əldə edilmiş razılaşmaları tam dəstəkləyir: "Şübhəsiz ki, erməni silahlı birləşmələri Azərbaycan ərazilərindən çıxarılmalı, Zəngəzur dəhlizinin bloku açılmalı, sərhədlər müəyyən edilməlidir. Bu vəziyyətdə Rusiya Azərbaycanın hərəkətlərini dəstəkləyir və biz Rusiya rəsmilərinin Bakının indiki hərəkətlərinə necə sakit yanaşdığını görürük. Təbii ki, insanların ölümü böyük faciədir, əllərində silahla vətənini müdafiə edən hərbçilərin həlak olması hamımızı kədərləndirir. Təəssüf ki, bu hələ də davam edir. İndiki mərhələdə bu toqquşmaların böyük müharibəyə çevrilməməsi çox vacibdir. Əgər Azərbaycan tərəflərin əvvəllər qaldırdığı məsələləri həll edə bilsə, o zaman Bakı erməni tərəfinin təşkil etdiyi bütün təxribatlara layiqli cavabını verəcək", - deyə Dmitri Solonnikov bildirib.

"Bu təxribatlar Ermənistan üçün fəlakətə çevrilə bilər"

Hərbi ekspert Vladislav Şurıgin əmindir ki, Ermənistan üçün Qarabağda vəziyyətin gərginləşməsi intihara bərabərdir. Şurıginin sözlərinə görə, iki xalq arasında yığılmış nifrət potensialı o qədər böyükdür ki, hətta imzalanmış sazişlər də regionda gərginliyi aradan qaldıra bilmir. Nəticədə, Qarabağdakı təxribat fonunda bütün regional təhlükəsizlik sistemi parçalanır.

"Bu nifrətin səngiməsi üçün ən azı bir neçə nəsil dəyişməlidir. Tərəflərdən hər hansı biri əldə olunmuş razılaşmalara əl yelləyərək nifrətini güllə ilə ifadə edərsə, o zaman cavab olaraq onların da analoji reaksiya alması məntiqlidir. Mən indi başlanğıc nöqtəni, yəni hazırda Qarabağda gərginliyin artmasında kimin günahkar olduğunu müəyyən etməyə hazır deyiləm, amma aydındır ki, Ermənistan tərəfi üçün bu cür hərəkətlər çox acınacaqlı ola bilər. Azərbaycan, təbii ki, hərbi baxımdan Ermənistanı bir neçə miqyasda üstələyir, ona görə də erməni tərəfin hər hansı təxribatı öz dövlətinə qarşı cinayətdir".

Ekspertin fikrincə, Azərbaycan üçün vaxtında dayanmaq vacibdir, çünki münaqişənin daha da kəskinləşməsi halında müharibə çox qanlı qarışıqlığa çevrilə bilər: "Ərazi eləcə dir ki, davamlı mübarizə üçün əlverişlidir. Beləliklə, məncə, ilk və çox güman ki, sonuncu da olmayan indiki qarşıdurma alovunu dayandırmaq üçün vasitəçilər 2020-ci ildə əldə edilmiş üçtərəfli bəyanatı tərəflərə vaxtında xatırlatmalıdırlar. Artıq qeyd etdiyim kimi, Ermənistan üçün istənilən təxribat ciddi hərbi nəticələrlə doludur, eyni zamanda, eskalasiya qaçılmaz olaraq hər iki tərəfdən hərbçilərin ölümü ilə yekunlaşacaq. Onlardan biri bu

işdə güclü və müdrik olmalıdır. Mən şəxsən onun Azərbaycan tərəfi olmasını istəyirəm".

Erməni mənbələrinin guya İran qoşunlarının Azərbaycan sərhədinə yeridilməsi ilə bağlı məlumatını şərh edən ekspert, Ermənistan çətin ki, İranın köməyinə arxalansın. Şurıginin sözlərinə görə, Ermənistan İranın bu vəziyyətə qarışmayacağını başa düşür, çünki bu, onun maraqlarına uyğun deyil, xüsusən də, söhbət silahlı münaqişədən gedirsə: "Hesab edirəm ki, bu məlumat daha çox Ermənistanın daxili ictimaiyyəti üçün nəzərdə tutulub. Tehranın bu müharibəyə girmək planları yoxdur, nəinki ona qərq olmaq. Ermənistan sərhədlərin demarkasiyası və delimitasiyası məsələsini, ümumiyyətlə, nəqliyyat kommunikasiyalarının (o cümlədən Zəngəzur dəhlizinin) blokdan çıxarılması məsələsini süründürür, çünki bu, uduzulmuş müharibənin son nəticələrinə çatmamaq üçün danışıqlar prosesini mümkün qədər uzun müddətə uzatmaq məqsədi daşıyır.

Başa düşmək lazımdır ki, Ermənistan daxilində cəmiyyətdə parçalanma var, o, hakimiyyət, siyasi fəallar, o cümlədən hərbçilər vasitəsilə stimullaşdırılır. Bəziləri başa düşür ki, Azərbaycanla güzəştə getmək lazımdır, bəziləri isə Ermənistanın "böyük və yenilməz" olduğu 90-cı illərə qayıtmaq istəyir. Və bu revanşizm 2 il əvvəl qəbul edilmiş qərarların icrasına güclü təsir göstərir. Bununla belə, Qarabağda yenidən genişmiqyaslı müharibənin alovlana biləcəyini düşünmürəm.

Birincisi, qeyd etdiyim kimi, Ermənistanın hərbi potensialı Azərbaycanın imkanları ilə müqayisə olunmazdır, ikincisi, İrəvan yaxşı bilir ki, Rusiya ona kömək etməyəcək, onun aktual məsələsi Ukrayna ilə bağlıdır. Ona görə də Ermənistan münaqişənin mənbəyinə çevrilərsə, Rusiya Federasiyası qıcıqla Azərbaycanın üzərinə düşən vəzifələri yerinə yetirməsinə imkan verəcək.

Eyni zamanda başa düşmək lazımdır ki, Rusiya sülhməramlıları Qarabağda qalır, öz tapşırığını yerinə yetirir və ümid edirəm ki, bu təxribatlar Ermənistan üçün fəlakətə çevriləcək yeni müharibəyə səbəb olmayacaq", - deyə V.Şurigin yekunlaşdırıb.

Tərcümə - Elçin Bayramlı



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.

Rus ekspertlər: "Rusiya Ermənistana kömək etməyəcək"

SOFTLINE

SON SƏHİFƏ
SƏS
6 avqust
2022-ci il

Uşaqların bağçaya getməsi nədən önəmlidir?

"Uşaqlar yalnız ailə içərisində böyüdükdə təbii ki, bu onların inkişafına mənfi təsir göstərəcək. Uşaq cəmiyyət içərisində olarsa, öz yaşıdları ilə ünsiyyət qurarsa bu zaman daha çox inkişaf etmiş olar. Baba, nənə yanında böyüyən uşaqlar bilirik ki, bir az davranış pozuntulu uşaqlar olur. Çünki baba-nənə öz nəvələrinə "etmə", "olmaz" kimi sözlərdən istifadə etmir".

Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Leyla Fətəli bildirib.

Onun sözlərinə görə, assosial olan uşaqların əksəriyyəti bağçaya getməyən uşaqlardır: "Bugünkü uşaqların inkişafının ləngimə səbəbi onların çox vaxt televizor, telefon, planşetlə zaman keçirməsidir. Yaxud da öz əşyalarını heç kəslə paylaşmaq istəmirlər. Bağça isə uşaqların həyatına müsbət cəhətdən yaxşı təsir edir. Bağça uşaqlara paylaşmağı, nitqin inkişafını, öz fikirlərini səlis ifadə etməyi öyrədir. Həmçinin böyük və kiçik matorikanı inkişaf etdirir. Ümumiyyətlə bağça birmənalı olaraq uşağın bir şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.

Bağça həyatı görməyən uşaq birdən-birə məktəbə başlayanda təbii ki, çətinlik çəkir. İstər qavramada, istərsə də sosiallaşmada. Ailədə böyümüş uşaq birbaşa məktəbə gedəndə bu onlarda travma yaradır. 4 yaşına qədər gələn uşaq məktəbəqədər hazırlığa getdiyi zaman anadan ayrılmalı olur və 3-4 saat bilmədiyi mühitdə oturmağa məcbur olur. Müəlliminin et dediyini etməli, etmə demədiyini etməməlidir. Bu uşaq üçün travmatik durum yaradır. Bu zaman uşaq özünü ailəsi, anası tərəfindən atılmış hiss edir, ağlayır, uşaqda bəzi davranış pozuntuları yaranır, əsəb gərginliyi formalaşır. Məcbur oluruq uşağı psixoloq yanına aparaq ki, bu problemlər aradan qalxsın.

Bu problemlərin yaranmaması üçün uşağın bağçaya getməsi vacibdir. Bağça qaydaqanundan əvvəl uşağa əylənməyi, paylaşmağı, əylənərək öyrənməyi aşılayır. Daha sonra uşaq hər şeyi yavaş-yavaş dərk edir və artıq məktəbə getməli olduğunu anlayır. Bugünkü dövrdə uşaqlar mütləq bağçaya getməlidir".

Abutel İlhamqızı

Bu futbolçu bir ilə 22 milyon avro qazanır!

"Bild" nəşri "Bavariya"nın ən çox maaş alan futbolçularının siyahısını hazırlayıb. Qol.az xəbər verir ki, ilk pillədə klubun yeni transferi Sadio Manedir. 30 yaşlı seneqallı hücumçunun maaşı illik 22 milyon avrodur.

Qapıçı Manuel Noyer 2-ci (21 milyon avroya qədər), forvard Tomas Müller 3-cüdür (20,5 milyon avro). Yarımmüdafiəçilərdən Leroy Sane və Kinqsli Koman 4-cü yerdədirlər - 20 milyon avro. Digər yarımmüdafiəçi Yosua Kimmix 19,5 milyon avro məvaciblə 6-cı pillədə qərarlaşır. Serj Qnabri isə 7-cidir (19 milyon avro).

Bu yay "Yuventus"dan transfer olunan müdafiəçi Matteys de Liqt isə illik 16 milyon avro qazanır.

Selena Qomezin nişanlısı kimdir?

Dünyaca məşhur ulduz Selena Qomezin yeni münasibətə başladığı iddia olunub. SİA xəbər verir ki, məşhur sima İtalyan rejissor Andrea İervolino ilə birlikdə görüntülənib. Qeyd edək ki, cütlüyün dəniz kənarında olan bikinili fotoları sosial şəbəkədə yayılıb. Hazırda isə cütlük İtalyada yaşayır.

Banuçiçək Hüseynli

Temza "quruyacaq"..?

Anomal istilər səbəbindən Britaniyanın Temza çayının mənbələri tarixdə ilk dəfə quruyub. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə "Guardian" nəşri yazır.

Ekoloji xeyriyyəçilik təşkilatı "Rivers Trust"ın sözçüsü Rob Collins nəşrə bildirib ki, uzun müddət davam edən isti və quru havadan sonra Qlosterşirdəki Temza çayının baş suları quruyub və indi "zəif axın aşağıdan beş mildən çox az görünür".

Qeyd edək ki, istilik dalğası Britaniyaya iyul ayında bailayaraq gəlməyə başlayıb. Belə ki, hələ iyulun 19-da havanın temperaturu 40,3 dərəcəyə çatıb və qeyd edilməlidir ki, bu əvvəlki tarixi rekordun yenilənməsidir.

Bununla belə, sinoptiklər avqustun əvvəli üçün də xəbərdarlıq eiblər. Belə ki, cümə axşamı, avqustun 4-də meteorologiya idarəsi isti və quraq havanın təslim olmayacağını bildirib. Gələn həftə temperatur 35 dərəcəyə qədər yüksələ biləcəyi və havanın yağışsız olacağı bildirilir.

Ağasəf Babayev

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220